# Musiqi

DƏRSLİK



5

 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

OQTAY RƏCƏBOV
NAZİM KAZIMOV
YEGANƏ AXUNDOVA
OFELİYA İMANOVA

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün

# MUSİQİ

fənni üzrə **DƏRSLİK**



Bu nəşrlə bağlı irad və təkliflərinizi
tahsil_az@yahoo.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

Təhsil
BAKI – 2020

# MÜNDƏRİCAT


**POEZİYA VƏ MUSİQİ**
1. Mahnının yaranmasında poeziyanın rolu .................... 6
2. Vokaliz .................... 8
3. Sözsüz mahnı .................... 10
4. Poeziya və kantata .................... 12
5. Libretto və opera .................... 14
6. Libretto və balet .................... 16
7. Libretto və operetta .................... 18
8. Özünüzü yoxlayın .................... 20

**MUSİQİDƏ ŞEİRİN ROLU**
9. Mahnı və poeziya .................... 22
10. Aşıq musiqisi və poeziya .................... 24
11. Muğamların növləri .................... 26
12. Zərbi-muğam və poeziya .................... 28
13. Romans və qəzəl .................... 30
14. Özünüzü yoxlayın .................... 32

**MUSİQİ VƏ TƏSVİRİ İNCƏSƏNƏT**
15. Musiqidə dəniz mövzusu .................... 34
16. Musiqili lövhələr və təsviri sənət .................... 36
17. Muğam dəsgahları .................... 38
18. Musiqidə sülh mövzusu .................... 40
19. Musiqidə Nizami Gəncəvi obrazı .................... 42
20. Musiqidə Məhəmməd Füzuli obrazı .................... 44
21. Musiqidə ana obrazı .................... 46
22. Musiqidə Novruz bayramı .................... 48
23. Özünüzü yoxlayın .................... 50

**MUSİQİDƏ OBRAZ**
24. Musiqidə karvan obrazı .................... 52
25. Musiqidə qəhrəmanlıq obrazı .................... 54
26. Musiqidə Don Kixot obrazı .................... 56
27. Musiqidə təbiət mənzərəsi .................... 58
28. Musiqidə neftçi obrazı .................... 60
29. Musiqidə Ulu öndər Heydər Əliyevin obrazı .................... 62
30. Musiqidə Hindistan mövzusu .................... 64
31–32. Özünüzü yoxlayın .................... 66

Musiqi lüğəti .................... 67
Dərsliyə daxil olan mahnıların notları .................... 68

# POEZİYA VƏ MUSİQİ



1

# MAHNININ YARANMASINDA POEZİYANIN ROLU

Xalq mahnısı → Xalq şeiri, Xalq melodiyası



Aşıq mahnısı → Aşıq şeiri, Aşıq melodiyası



Bəstəkar mahnısı → Şair şeiri, Bəstəkar melodiyası






*Xan Şuşinski*

***Mahnı*** — musiqi və şeirdən ibarət kiçikhəcmli incəsənət əsəridir. Musiqi ilə poeziyanın vəhdəti bu janrın bütün növlərini qəlbə yaxın və dinlənilən edir.

Xalq mahnıları el musiqiçiləri tərəfindən yaradılır. Bu mahnılarda mahnı mətni, əsasən, bayatılardır. Musiqisi və sözləri məşhur xanəndəmiz Xan Şuşinskiyə məxsus olduğuna baxmayaraq, "Qəmərim", "Ay qara qız", "Şuşanın dağları", "Ay qəşəng ceyran" və s. mahnılar çox sevildiyi üçün xalq mahnısı kimi məşhurlaşıb.

***Mahnı dinləyək***

## ŞUŞANIN DAĞLARI

***(Azərbaycan xalq mahnısı)***

**I**

Şuşanın dağları başı dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdu gümanım.

***Nəqərat:***
Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da, balam, barı gül.

**II**

Şuşada axşamlar yanar ulduzlar,
Onlardan gözəldir gəlinlər, qızlar,
Oturub yol üstü yarını gözlər.

***Nəqərat:***

**III**

Şuşanın hər yandan gəlir sorağı,
Tərifə layiqdir İsa bulağı,
Dağları, bağları, qızlar oylağı.

*Mahnını yada salaq və notla oxuyaq*

## VƏTƏN OĞLU

*(Aşıq mahnısı)*




Mahnının mətni və melodiyası arasında uyğunluq olmalıdır. Əgər şeirin xarakteri şəndirsə, ona bəstələnmiş musiqi də şən xarakterli olur. Dinlədiyimiz “Şuşanın dağları” və “Vətən oğlu” mahnıları şən xarakterlidir və 6/8 xanə ölçüsündə səslənir.

*Mahnı öyrənək*

## QALİBLƏR MAHNISI

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Ələkbər Ziyatayındır.*



**I**

Bizi dağlar qartalıtək böyüdən,
Bir anasan, ey doğma yurd, ey Vətən!
Öz mahnını öyrədirsən bizə sən,
Qaliblərin mahnısıdır bu mahnı!

**II**

Bu mahnıyla ötür aylar, fəsillər,
Ağgünlü bir dünya qurur nəsillər.
Qulaq verin, ellər, ellər, ay ellər,
Qaliblərin mahnısıdır bu mahnı!

### Sual və tapşırıqlar



***1. Şeirin mahnıda rolu nədən ibarətdir?***
***2. Xalq mahnıları necə yaranır?***
***3. Bəstəkar mahnılarının xalq və aşıq mahnılarından fərqi nədədir?***
***4. Nə vaxtsa sizin də öz mahnınız olubmu?***
***5. Xan Şuşinski haqqında araşdırma aparın. Xanəndənin əsl ad və soyadını müəyyənləşdirin.***

2

# VOKALİZ

Yalnız səslə ifa olunan sözsüz melodiya “vokaliz” adlanır.

***Mahnını vokaliz şəklində və notla oxuyaq***

## ARZULAR

*Musiqisi Tofiq Quliyevindir.*




Bəstəkar Tofiq Quliyevin “Görüş” filminə yazdığı “Arzular” melodiyasından bir parçanı vokaliz şəklində oxuyaq və 3/4 xanə ölçüsü ilə dirijorluq edək.




***Musiqi dinləyək***

**“Şahzadə Qara qızıl” cizgi filmindən “Vokaliz”**

*Musiqisi Oqtay Rəcəbovundur.*



**BUNU DA BİLİN**

**“Şahzadə Qara qızıl” cizgi filmində neft şahzadəsi ən uca qadın səsi — “soprano” ilə vokaliz oxuyur.**

***Mahnı oxuyaq***

**“Araz” mahnısını əvvəlcə vokaliz şəklində oxuyun, sonra 2/4 xanə ölçüsünə uyğun dirijorluq edin.**




## ARAZ

*Musiqisi Asəf Zeynallının,*
*sözləri Rəsul Rzanındır.*

**I**

Araz, Araz, daşqın Araz,
Dalğaları aşqın Araz.
Könlüm kimi coşqun Araz,
Nə gözəldir gözün sənin!
Araz, Araz, daşqın Araz,
Dalğaları aşqın Araz.

**II**

Axıb getmə əbəs yerə,
Süd ver körpə əkinlərə.
Çiçəklənsin düzən-dərə,
Dilə düşsün sözün sənin.
Araz, Araz, daşqın Araz,
Dalğaları aşqın Araz.



Asəf Zeynallı



Rəsul Rza

## Notla oxuyaq




"Araz" mahnısı Azərbaycanı ikiyə bölən və hər iki tərəfin mahnı və şeirlərində tez-tez yad edilən Araz çayına həsr edilib. "Araz" mahnısı xaraktercə qəmlidir. Mahnı 2/4 xanə ölçüsündə, aramlı tempdədir.

### BUNU DA BİLİN

**İstedadlı bəstəkar Asəf Zeynallı bəstələdiyi "Uşaq süitası" ilə Azərbaycan uşaq musiqisi repertuarının əsasını qoyub.**

### Sual və tapşırıqlar

*1. Vokalizlə mahnının oxşar və fərqli cəhətləri hansılardır?*

*2. "Araz" mahnısının xarakteri ilə Araz çayının taleyi arasındakı əlaqəni tapın.*

*3. "Şahzadə Qara qızıl" cizgi filminə baxın. Filmdə xeyirlə şərin mübarizəsini təsvir edin. Gənc neftçi ilə Qara qızılın qovuşmasına mane olan mənfi obrazlar haqqında danışın.*

*YouTube üzərində axtarış üçün açar sözlər: Azərbaycan cizgi filmi, neftçi, Qara qızıl, div, cin.*



3

# SÖZSÜZ MAHNI



**Feliks Mendelson**

Musiqidə sözsüz mahnılar da mövcuddur. Sözsüz mahnı — sözdən istifadə edilmədən bir musiqi aləti, yaxud orkestr üçün yaradılmış əsərdir. Şən, qəmli və təntənəli xarakterlərə malik sözsüz mahnılar da var.

Dünya musiqi tarixində sözsüz mahnı janrını ilk dəfə alman bəstəkarı Feliks Mendelson yaratmış, Azərbaycanda isə bu janra ilk müraciət edən bəstəkar Süleyman Ələsgərov olmuşdur.



**Süleyman Ələsgərov**

***Musiqi dinləyək:*** **Süleyman Ələsgərovun "1 №-li sözsüz mahnı"-sından bir parça**

Bəstəkar Süleyman Ələsgərov "1 №-li sözsüz mahnı"nı və bu janrda digər mahnıları Azərbaycan xalq çalğı alətləri orkestri üçün yazmışdır.

***Musiqi dinləyək:*** **Feliks Mendelsonun "1 №-li sözsüz mahnı"sından bir parça**

Mendelsonun fortepiano üçün "1 №-li sözsüz mahnı"sını dinləyək və Süleyman Ələsgərovun eyniadlı əsəri ilə müqayisə edək.



***Azərbaycan Xalq Çalğı Alətləri Orkestri***

*Mahnını əvvəlcə notla, sonra isə sözləri ilə oxuyaq*

## AY XƏZƏR

*Musiqisi Nazim Əliverdibəyovun,*
*sözləri Nəbi Xəzrinindir.*




**I**

Açıb sənə ürəyimi danışıram mən,
Eşqim kimi coşub-daşan Xəzərsən, Xəzər.

***Nəqərat:***
Sən mehriban Xəzərimsən,
Qanadındır ağ ləpələr,
Mavigözlü gözəlimsən, ay Xəzər, Xəzər!

**II**

Gördüm səni həyatımın ilk səhərində,
Ürəyimdə qanad açan sözlərsən, Xəzər.

***Nəqərat:***

**III**

Məhəbbətim gəzər qumlu sahillərdə,
İzlərini mirvaritək düzərsən, Xəzər.

***Nəqərat:***



### Sual və tapşırıqlar



***1. Sözsüz mahnıda əsas rolu nə oynayır?***

***2. Dünya musiqi tarixində sözsüz mahnı janrına ilk dəfə hansı bəstəkar müraciət edib?***

***3. Süleyman Ələsgərovun sözsüz mahnıları hansı musiqi kollektivi üçün nəzərdə tutulub?***

***4. Sözsüz mahnılarla sözlü mahnılar arasında oxşar və fərqli cəhətləri müəyyən edin.***

4

# POEZİYA VƏ KANTATA



İohann Sebastyan Bax

***Kantata*** — bir, yaxud çoxhissəli, təntənəli, nağıl-epik xarakterli vokal-simfonik əsərdir. Kantata — italyan dilindən tərcümədə "oxumaq" deməkdir. İlk kantatalar solo şəklində vokal əsər idi. XVII əsrin axırlarında yaranan kantatalar isə artıq xor kollektivinin ifasında səslənirdi.



Qara Qarayev



*Simfonik orkestr və xor kollektivi*

Dahi alman bəstəkarı İohann Sebastyan Bax gözəl kantatalar müəllifidir. Azərbaycanda kantata janrının yaradıcısı dahi bəstəkarımız Üzeyir Hacıbəylidir. Qara Qarayev, Fikrət Əmirov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Ramiz Mustafayev, Aqşin Əlizadə də kantata janrında gözəl əsərlər yaratmışlar. Belə əsərlərdən biri Qara Qarayevin Səməd Vurğunun eyniadlı əsəri əsasında yazdığı "Zamanın bayraqdarı" kantatasıdır.

## *Musiqi dinləyək və notla oxuyaq*

Qara Qarayevin "Zamanın bayraqdarı" kantatasının orta (B) hissəsi not ilə ifa olunur.

## ZAMANIN BAYRAQDARI

*Musiqisi Qara Qarayevin,*
*sözləri Səməd Vurğunundur.*




***Mahnı öyrənək***

## GƏNC İDMANÇILAR MARŞI

*Musiqisi Musa Mirzəyevin,*
*sözləri Hikmət Ziyanındır.*

**I**

Polad kimi bədənimiz,
"Gənc idmançı" adımız var.
Qüvvətliyik, sağlamıq biz,
Sıramıza gəlin, dostlar.

***Nəqərat:***
Bizə yarış meydanıdır,
Düzlər, çaylar, gen üfüqlər.
Hər oyunda, hər yürüşdə,
Üzümüzə gülür zəfər.

**II**

Məşq edirik yorulmadan,
Bərkiyirik gündən-günə.
Yeni-yeni zəfərlərə,
Çatmaq üçün sabah yenə.

***Nəqərat:***



### Sual və tapşırıqlar

***1. Kantata nədir və harada yaranıb?***
***2. Kantatanı hansı musiqi kollektivləri ifa edir?***
***3. "Gənc idmançılar" mahnısına ritmik müşayiət yaradın.***
***4. Oqtay Zülfüqarovun "Kim sevirsə idmanı" mahnısını dinləyin və "Gənc idmançılar marşı" ilə müqayisə edin. İki mahnının oxşar və fərqli cəhətlərini tapın.***
***YouTube üzərindən axtarış üçün açar sözlər: Oqtay Zülfüqarov, idman, bir, iki, üç, dörd.***



5

# LİBRETTO VƏ OPERA



*Klaudio Monteverdi*



*Mixail Qlinka*

***Opera*** — vokal-instrumental musiqili dram əsəridir. Opera italyan dilindən tərcümədə “əsər” deməkdir. Operada əsərin mətni musiqinin müşayiəti ilə ifa edilir. Müasir operada solo, xor, vokal ifaçılığı və rəqs vəhdət təşkil edir. Opera bəstəkarla libretto müəllifinin birgə əməyinin məhsuludur.

***Libretto*** – böyük musiqi-vokal əsərinin yazılı mətnidir.

İlk operalar İtaliyada XVI—XVII əsrlərdə Klaudio Monteverdi, Rusiyada XIX əsrdə Mixail Qlinka, Azərbaycanda isə XX əsrin əvvəllərində Üzeyir Hacıbəyli tərəfindən yazılıb.

## *Musiqi dinləyək və notla oxuyaq*



*Üzeyir Hacıbəyli*

### ÜZEYİR HACIBƏYLİNİN “KOROĞLU” OPERASINDAN “QIZLAR XORU”



Üzeyir Hacıbəylinin “Koroğlu” operası opera janrının parlaq nümunəsidir. Operanın libretto müəllifi Məmməd Səid Ordubadidir. Libretto “Koroğlu” dastanı əsasında yazılıb. “Koroğlu” qəhrəmanlıq dastanıdır. Koroğlu obrazı xalq üsyanına başçılıq edən cəngavərdir.

“Koroğlu” operası 1937-ci ildə Bakı şəhərində, 1938-ci ildə isə Moskvadakı Böyük Teatrda nümayiş etdirilib.



***Məmməd Səid Ordubadi***

**BUNU DA BİLİN**

**Üzeyir Hacıbəyli 1908-ci il yanvarın 25-də Bakıda “Leyli və Məcnun” operasının tamaşası ilə Azərbaycanda milli operanın bünövrəsini qoymuşdur.**

***Mahnı öyrənək***

**BAYRAM GÜNÜ**

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

**I**

Azad ellərinin gənc nəsliyik biz,
Sevinclə doludur körpə qəlbimiz.
Biz azad bülbülük, ölkəmiz gülşən,
Bu bayram günündə gəzirik şən-şən.

**II**

Sevirik anamız Azərbaycanı,
Odur qəlbimizin hiss-həyəcanı.
Gündə çiçəklənir Vətən torpağı,
Səadət Günəşi olub bayrağı.



***Mirmehdi Seyidzadə***

**Sual və tapşırıqlar**

***1. Hansı operanı səhnədə seyr etmisiniz? Necə düşünürsünüz, operada baş verənlərlə həyat hadisələrini hansı fərq ayırır? Fikrinizi izah edin.***

***2. İlk opera janrının yaradıcıları kimlər olmuşdur?***

***3. Azərbaycanda milli operanın bünövrəsi hansı əsərlə qoyulub?***

6

# LİBRETTO VƏ BALET

***Balet*** — musiqili-xoreoqrafik tamaşadır.

Balet — fransız dilindən tərcümədə "rəqs edirəm" deməkdir. İlk balet əsəri də elə Fransada 15 oktyabr 1581-ci ildə tamaşaya qoyulub. Bu, italyan Baltazarini tərəfindən quruluş verilmiş "Kraliçanın gülməli baleti" tamaşası idi.



***"Kraliçanın gülməli baleti"***

Rusiyada XIX—XX əsrlərdə Pyotr Çaykovski, İqor Stravinski, Sergey Prokofyev və başqaları bu janrda əsərlər yazmışlar. Azərbaycanda isə bu janr XX əsrin əvvəllərində Əfrasiyab Bədəlbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun, Aqşin Əlizadənin və başqalarının yaradıcılığında öz əksini tapmışdır.

Operadan fərqli olaraq, baletin librettosu şeirlə deyil, nəsrlə yazılır. Baleti xoreoqraf səhnələşdirir. Libretto rəqslər vasitəsilə həyata keçirilir.

Azərbaycanda və müsəlman Şərqində ilk balet Xalq artisti Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletidir. Libretto müəllifi bəstəkar özüdür. "Qız qalası" üçpərdəli baletdir.



***"Qız qalası" baletindən***



*Musiqi dinləyək*

**Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletindən “Adajio” və “Vals”**

**BUNU DA BİLİN**

**Adajio ağır tempdə, vals isə şən-oynaq tempdə səslənir.**

*Mahnı öyrənək*

## ŞƏN AZƏRBAYCAN

*Musiqisi Polad Bülbüloğlunun,*
*sözləri Məstan Günərindir.*

**I**

Qoy mən yenə söhbət açım ilk baharımdan,
Nəğməm ilə bir də keçim öz diyarımdan.

***Nəqarat:***
Bol bəhrəli Muğan düzü, Mil düzü, Şirvan düzü,
Gəl-gəl deyir, şən Azərbaycan!
Tər gülləri şəfalıdır, Göygöl nə səfalıdır,
Hər yanı gülşən Azərbaycan.

**II**

El qızları düzüm-düzüm Kür qırağında,
Min gül açır Gəncəmizin hər budağında.
Dost elləri Qarabağın dağ vüqarıdır,
Gen çölləri bu torpağın xoş baharıdır.
***Nəqarat:***



***Polad Bülbüloğlu***

“Rast” muğamı əsasında, 6/8 xanə ölçülü “Şən Azərbaycan” mahnısı şən rəqs xarakterlidir. Mahnıda Vətənimizin əsrarəngiz təbiəti şeir və musiqi dili ilə tərənnüm edilir.

**Sual və tapşırıqlar**

***1. Balet bir musiqi janrı kimi ilk dəfə harada yaranmışdır?***
***2. Opera və balet librettolarının oxşar və fərqli cəhətləri nədir?***
***3. “Qız qalası əfsanəsi” adlı cizgi filmini seyr edin. “Qız qalası” baletindəki əfsanə ilə cizgi filmindəki əfsanəni müqayisə edin.***
***YouTube üzərindən axtarış üçün açar sözlər: Azərbaycan cizgi filmi, Qız qalası, əfsanə.***



7

# LİBRETTO VƏ OPERETTA



*Jak Offenbax*



*İohann Ştraus (oğul)*

***Operetta*** — vokal-rəqs səhnələrindən və danışıq epizodlarından ibarət komediya məzmunlu musiqili səhnə əsəridir. Operetta, eyni zamanda musiqili komediya da adlanır. İlk operetta Fransada XIX əsrin ortalarında Jak Offenbax tərəfindən yazılıb.

Operetta bir musiqi janrı kimi Vyanada xüsusilə sevilib. Operetta janrında oğul Ştraus və İmre Kalman kimi bəstəkarlar gözəl nümunələr yaradıblar. Azərbaycanda isə operetta janrının yaradıcısı Üzeyir Hacıbəylidir.

Operetta libretto əsasında yazılır. Bəstəkar librettodakı ariya, vokal, duet, trio, kvartet və xor ifaları üçün yazılmış poeziya nümunələrinə müxtəlif quruluşlu musiqi bəstələyir. Operetta üçün yazılmış libretto poeziya nümunələri və danışıq mətnlərindən ibarət olur. Operettada rəqslərdən geniş istifadə edilir.

**BUNU DA BİLİN**

**Bir neçə musiqiçinin birgə ifasına ansambl deyilir. Ansamblda ifaçıların sayı iki nəfərdən ibarət olarsa — duet, üç nəfərdən ibarət olarsa — trio, dörd nəfərdən ibarət olarsa — kvartet, beş nəfərdən ibarət olarsa — kvintet adlanır.**

***Musiqi dinləyək:***

**Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Əsgərin ariyası"**



*"Arşın mal alan" filmindən*

"Arşın mal alan" operettası 1913-cü ildə Bakıda Tağıyev Teatrında tamaşaya qoyulub. Əsərdə hadisələr Azərbaycanın musiqi beşiyi olan qədim Şuşa şəhərində cərəyan edir. Operettanın libretto müəllifi və bəstəkarı Üzeyir Hacıbəylidir. Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasından götürülmüş qəzəldən başqa, operettanın mətni bütünlüklə bəstəkar tərəfindən işlənib. Bu qəzəl "Əsgərin ariyası"nda səslənir:

*Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,*
*Nalə tərkin qılmazam, ney tək kəsilsəm bənd-bənd.*

## *Notla oxuyaq:* Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Cahan xalanın kupletləri"




## *Mahnı öyrənək*

## QARABAĞ

*Musiqisi Cahangir Cahangirovun, sözləri Rəfiq Zəkanındır.*

**I**

Sən ellərin, könüllərin,
Ülvi diyarısan.
Şirin canın, Azərbaycanın,
Bir əbədi baharısan...

***Nəqərat:***
Cənnətim Qarabağ,
Zinətim Qarabağ!
Nəğmələr gülüstanısan,
Sevgi dastanısan!

**II**

Quşlar uçar, güllər açar,
Mavi qucağında.
Hara baxsan, zövq alacaqsan,
Sənin İsa bulağında.
***Nəqərat:***

Şən xarakterli "Qarabağ" mahnısı 6/8 xanə ölçüsündədir. "Şüştər" muğamına əsaslanır.

### Sual və tapşırıqlar

***1. "Arşın mal alan" operettasında hadisələr hansı şəhərdə cərəyan edir?***

***2. Operettada əsas tənqid hədəfi nədir?***

***3. "Qarabağ" mahnısının şən xarakteri hansı muğama əsaslanır? Bəs bu gün Qarabağ haqqında mahnı bəstələnsəydi, hansı muğam üstündə olardı?***

***4. Bəstəkar Cahangir Cahangirovun şair Rəfiq Zəkanın sözlərinə bəstələdiyi "Qarabağ" mahnısını Şövkət Ələkbərovanın ifasında dinləyin. Mahnıda şair, bəstəkar və müğənni Qarabağ sevgisini necə tərənnüm edib?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Cənnətim Qarabağ, Şövkət Ələkbərova.***



8

# ÖZÜNÜZÜ YOXLAYIN

**POEZİYA**
- *Xalq mahnısı*
- *Aşıq mahnısı*
- *Bəstəkar mahnısı*

**LİBRETTO**
- *Opera*
- *Operetta*
- *Balet*

*Xanəndələrimiz*



*Xan Şuşinski*



*Əlibaba Məmmədov*

*Aşıq sənəti ustadları*



*Aşıq Şəmşir*



*Aşıq Ədalət*

*Bəstəkarlarımız*



*Qəmbər Hüseynli*



*Ağabacı Rzayeva*

*"Koroğlu" operasının müəllifləri*

*Bəstəkar* — *Librettoçu*



*Üzeyir Hacıbəyli*



*Məmməd Səid Ordubadi*

*Azərbaycanda ilk baletin müəllifi*

*Bəstəkar* — *Librettoçu*



*Əfrasiyab Bədəlbəyli*

*Azərbaycanda ilk operettanın müəllifi*

*Bəstəkar* — *Librettoçu*



*Üzeyir Hacıbəyli*

# MUSİQİDƏ ŞEİRİN ROLU



9

# MAHNI VƏ POEZİYA



*Ramiz Mirişli*



*Ramiz Quliyev*

Mahnı iki üsulla yaranır — əsasən, şeirə musiqi bəstələnir, bəzi hallarda isə musiqiyə şeir yazılır.

Vokaliz və sözsüz mahnı istisna olmaqla, mahnı — şeirlə musiqinin vəhdətindən yaranır. Mahnı insanın mənəvi ruhuna qida verir, onu qələbəyə, sevgiyə, səmimiyyətə səsləyir. Bəzən mahnının melodiyası müəyyən musiqi alətində ifa olunur. Bu, mahnının instrumental ifası adlanır. Habil Əliyev — kamançada, Vaqif Mustafazadə — pianoda, Rafiq Hüseynov (Rəmiş) — gitarada, Kamil Cəlilov və İlham Nəcəfov — nəfəsli alətlərdə mahnılarımızın gözəl instrumental ifaçıları sayılırlar. Ramiz Mirişlinin “Dalğalar” mahnısını məşhur tarzən Ramiz Quliyevin tarda səsləndirməsi bu mahnının instrumental ifasıdır.

“Segah” muğamı intonasiyaları üstündə səslənən “Dalğalar” mahnısı həzin və sakit xarakterə, 3/4 xanə ölçüsünə malikdir.

### *Musiqi dinləyək və notla oxuyaq*

### DALĞALAR

*Musiqisi Ramiz Mirişlinindir.*
*Tarda ifa edir Ramiz Quliyev.*

**Orta sürətlə**



*Mahnı öyrənək*

## NƏĞMƏLƏR

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*



**I**

Nə qədər gözəldir bizi bir anda,
Dalğadan-dalğaya atan nəğmələr.
Çarpışıb, döyüşür bəzən şir kimi,
Bəzən quzu kimi yatan nəğmələr.

***Nəqərat:***

Gəzir yer üzünü, gəzir büsbütün,
Elimin şöhrəti, şanıdır bu gün.
Yurdumu dünyaya tanıdır bu gün,
Ərzin o başına çatan nəğmələr.

**II**

Ümiddir, dayaqdır ürəyimizə,
Gəlir hər məqamda köməyimizə.
Çətinə düşəndə aparır bizi,
Bizim əlimizdən tutan nəğmələr.

***Nəqərat:***

**III**

Gah sevinc, gah da ki, qəm sarır bizi,
Torpaqdan ayırıb qoparır bizi.
Sirli bir aləmə aparır bizi,
Kədəri sevincə qatan nəğmələr.

***Nəqərat:***

6/8 xanə ölçüsündə olan oynaq və şən xarakterli “Nəğmələr” mahnısı “Bayatı-Şiraz” muğamı üzərində bəstələnib.

### Sual və tapşırıqlar



***1. Mətni olmayan mahnı necə adlanır?***

***2. Ramiz Mirişlinin “Dalğalar” mahnısının melodiyasının xarakteri necədir?***

***3. “Dalğalar” mahnısı hansı muğam üzərində bəstələnib?***

***4. Melodiya notlarının vəznlərinə uyğun əl çalmaqla “Nəğmələr” mahnısındakı xanədaxili ritmləri tutun.***

10

# AŞIQ MUSİQİSİ VƏ POEZİYA

Aşıq sənəti bayatılardan, xalq məsəllərindən, xalq musiqisindən qaynaqlanır.

***Dastan*** — aşıq poeziyasının ən mürəkkəb janrıdır. Azərbaycan dastanının ilk böyük abidəsi “Dədə Qorqud”dur. Dastanın bütün boylarında Dədə Qorqud qopuz (saz) çalıb, aşıq mahnıları ifa edir. “Koroğlu” dastanı (XVII əsr) da aşıqlar tərəfindən söylənilib. Qəhrəmanlıq səhnələri ilə yanaşı, dastanboyu Koroğlu saz çalıb, aşıq nəğmələri oxuyur. Dastanlarda aşıqlar insanlara sevinc bəxş edir, yol göstərir, məsləhət və təsəlli verir. Aşığın gəlişi ilə el-obaya sülh və firavanlıq gəlir.

Aşıq sənətinin ən mahir ifaçıları ustad aşıqlardır. Onlar həm şeir — gəraylı, qoşma, təcnis, müxəmməs yazır, həm də musiqi bəstələyir və oxuyurlar. Ustad aşıqlar xalq dastanlarını yaradır. Yalnız yaxşı saz çalmaq və oxumaq qabiliyyəti olan aşıqlar ifaçı aşıqlardır. Aşıq yaradıcılığının poetik nümunələrini yaradanlar isə el şairləri, daha doğrusu, ***aşıq-şairlərdir***.

Ustad aşıqlar
↑
Aşıq-şairlər (el şairləri) → Aşıqlar → İfaçı aşıqlar

Azərbaycanda Aşıq Abbas Tufarqanlı, Aşıq Valeh, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Pənah kimi ustad aşıqlar yaşayıb-yaradıb.

***Mahnı oxuyaq***

**Aşıq Pənahın “Unutma” şeirini saz musiqisinin müşayiəti ilə ifadəli oxuyaq.**



***Aşıq Pənah***

## UNUTMA

Qürbət elə səfər etsən, a dostum,
Bu yerlərdə güllü yazı unutma!
Xəzər sözü heç düşməsin dilindən,
Dəli Kürü, xan Arazı unutma!

Unutma Muğanı, qədim Gəncəni,
Bakının şöhrəti ucaltsın səni!
Görüb xoşlasan da bağı, gülşəni,
İlk ayaq açdığın düzü unutma!

Götür yol yoldaşı el nəğməsini,
Gözəl Qarabağın şikəstəsini!
Bülbülün, Şövkətin, Xanın səsini
Bir də mən Pənahın sazın unutma!

***Musiqi dinləyək:*** **Üzeyir Hacıbəylinin “Koroğlu” operasından “Koroğlunun aşıq mahnısı”**

**BUNU DA BİLİN**

**2009-cu ildə Azərbaycan aşıq sənəti UNESCO-nun bəşəriyyətin toxunulmaz qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.**

***Mahnını yada salaq və oxuyaq***

## AZƏRBAYCAN

*Not yazısı Səid Rüstəmovun,*
*sözləri Səməd Vurğunundur.*

**I**

Çox keçmişəm bu dağlardan,
Durnagözlü bulaqlardan.
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!

***Nəqərat:***
Yaşa, yaşa, Azərbaycan,
Ay anam, Azərbaycan.

**II**

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən!
Anam, doğma Vətənimsən!
Azərbaycan, Azərbaycan!

***Nəqərat:***

**III**

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Oğlun, qızın bəxtiyardır,
Azərbaycan, Azərbaycan!

***Nəqərat:***



**Sual və tapşırıqlar**

***1. Aşıq sənəti haqqında nə bilirsiniz?***

***2. “Kitabi-Dədə Qorqud. Basat və Təpəgöz” cizgi filmini izləyin. Filmdə Dədə Qorqud obrazına diqqət yetirin. O hansı hallarda görünür və hər dəfə gələndə xalqa necə kömək edir?***

***3. Daha hansı dastanları tanıyırsınız?***

***4. “Koroğlu” dastanını aşıq sənəti nümunəsi adlandırmaq olarmı?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Azərbaycan cizgi filmi, ozan, Dədə Qorqud, Təpəgöz, Basat.***

11

# MUĞAMLARIN NÖVLƏRİ

Yeddi əsas Azərbaycan klassik muğamı bunlardır: “Rast”, “Şur”, “Segah”, “Çahargah”, “Bayatı-Şiraz”, “Şüştər”, “Hümayun”. Üzeyir Hacıbəyli muğamların aşıladığı əhvali-ruhiyyəni belə səciyyələndirir:

**MUĞAMLAR**

- **ŞUR** – *şən, lirik əhvali-ruhiyyə*
- **SEGAH** – *məhəbbət hissi*
- **ÇAHARGAH** – *həyəcan*
- **RAST** – *mərdlik, gümrahlıq*
- **BAYATI-ŞİRAZ** – *qəmginlik*
- **ŞÜŞTƏR** – *dərin kədər*
- **HÜMAYUN** – *daha dərin kədər hissi və qəm-qüssə*

Azərbaycan klassik muğamları ifa xüsusiyyətlərinə görə: instrumental və vokal-instrumental muğamlara bölünür. Bu muğamların oxşar və fərqli cəhətləri vardır.

**İnstrumental muğamlar**



**OXŞAR CƏHƏTLƏRİ**

**1.** Şöbələrin adı eynidir.
**2.** Şöbələr eyni musiqi intonasiyalarından ibarətdir.
**3.** Musiqinin inkişafı eynidir.
**4.** İfa olunan muğamların adı eynidir.

**Vokal-instrumental muğamlar**



**FƏRQLİ CƏHƏTLƏRİ**

**1.** Muğamı xanəndə oxuyur, onu tar və kamança müşayiət edir.
**2.** Muğam şöbələri oxunarkən qəzəllərdən istifadə edilir.
**3.** Böyük şöbələr arasında təsniflər oxunur.
**4.** Kiçik şöbələr arasında rəqs xarakterli diringələr, rənglər çalınır.

***Musiqi dinləyək***

**“Rast” muğamının “Bərdaşt” şöbəsini əvvəlcə tarın (kamançanın), sonra isə xanəndə və musiqiçilərin ifasında dinləyək.**

***Notla oxuyaq:*** **“Rast” muğamının “Bərdaşt” şöbəsindən bir parça**



***Musiqi dinləyək:*** **Niyazinin “Rast” simfonik muğamından “Bərdaşt” şöbəsi**



***Niyazi***

“Bərdaşt” “Rast” muğamının giriş hissəsidir. Bu musiqi parçası təntənəli xarakterlidir. “Rast” simfonik muğamını görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazi 1949-cu ildə yazmışdır.

***Mahnı öyrənək***

## VƏTƏNİMSƏN

*Musiqisi Ramiz Mirişlinin,*
*sözləri Fikrət Qocanındır.*

**I**

Dağ gülləri min rəng çalır xalı kimi,
Bənövşələr gözəllərin xalı kimi,
Nəğmələr də dodaqların balı kimi,
Şirinləyir dodaqları səhər-axşam.

***Nəqərat:***
Ana torpaq, ana diyar, sən mənimsən,
Ömrüm, günüm, ruhum, canım, Vətənimsən.

**II**

Göllərində öz şəklini ceyran öpər,
Örpək kimi dumanları dağlar örtər,
Dağlarının ağ saçından zaman ötər,
Abşeronun Xəzər üstə yanan bir şam.



“Rast” muğamına əsaslanan bu mahnı 6/8 xanə ölçülü, şən xarakterlidir və cəld tempdə səslənir.

**Sual və tapşırıqlar**

***1. İnstrumental və vokal-instrumental muğamların oxşar və fərqli cəhətləri hansılardır?***
***2. Hansı klassik Azərbaycan muğamlarını tanıyırsınız?***
***3. Muğamları əhvali-ruhiyyəsinə görə iki qrupa bölmək lazım gələrsə, “Şur” muğamı ilə “Bayatı-Şiraz” eyni qrupa düşə bilərmi? Fikrinizi şərh edin.***



12

# ZƏRBİ-MUĞAM VƏ POEZİYA

Zərbi-muğamlarda improvizə ritm üstünlük təşkil edir. Ona görə də bu muğamlara "Zərbi-muğam", yaxud "Ritmik-muğam" deyilir. Zərbi-muğamlar aşağıdakılardır:






*Seyid Şuşinski*

3/4 xanə ölçüsünə malik, şən əhvali-ruhiyyəli "Arazbarı" aramla ifa olunur. Onun mahir ifaçılarından biri xanəndə Seyid Şuşinski olub. "Arazbarı" Füzuli rayonu və ona qonşu olan Cənubi Azərbaycan mahalında yaranmışdır. Adətən, bu zərbi-muğamın ifasında aşıq şeirindən istifadə olunur.

Üzeyir Hacıbəyli "Şur" muğamından qidalanan "Arazbarı" zərbi-muğamı əsasında simli alətlər orkestri üçün eyniadlı əsər yazmışdır. "Leyli və Məcnun" operasının beşinci pərdəsində də bəstəkar "Arazbarı"dan istifadə edərək onu simfonik orkestr üçün işləmişdir.

***Musiqi dinləyək:*** **Üzeyir Hacıbəylinin "Arazbarı" zərbi-muğamından bir parça simli alətlər orkestrinin ifasında**



*Simli alətlər orkestri*

*Mahnı öyrənək*

## QIŞ MAHNISI

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Tofiq Mütəllibovundur.*

**I**

Hər tərəfə yağır qar,
Tez gəlin siz, uşaqlar.
Ağ geyinib meşə, dağ,
Qartopası oynayaq.

**II**

Gizlənibdir turaclar,
Buz bağlayıb yamaclar.
Donub güllər, çiçəklər,
Əsir soyuq küləklər.

***Nəqərat:***
Qış gəlibdir, qış gəlib,
Bu yerlərə xoş gəlib.
Neyləyəcək qar bizə,
Dost olub bahar bizə.



*Firəngiz Əlizadə*

**BUNU DA BİLİN**

**Dünya şöhrətli bəstəkar Firəngiz Əlizadə “İntizar” operasında məşhur “Qarabağ şikəstəsi”ndən istifadə etmişdir. Operanın libretto müəllifi Nərgiz Paşayevadır.**



*Nərgiz Paşayeva*

**Sual və tapşırıqlar**



***1. “Arazbarı” hansı janra aid musiqi nümunəsidir?***

***2. “Arazbarı” instrumental əsərini hansı bəstəkar işləmişdir?***

***3. “Qış mahnısı”nı zümzümə edə-edə qış haqqında rəsm çəksəydiniz, bu mahnının hansı sətirlərini rəsmə köçürərdiniz?***

***4. Seyid Şuşinski haqqında araşdırma aparın. Xanəndənin əsl ad və soyadını müəyyənləşdirin.***

***5. Arif Babayevin ifasında “Qarabağ şikəstəsi” zərbi-muğamını dinləyin. Bu muğamın niyə zərbi-muğam adlandırılmasını aydınlaşdırmağa çalışın.***

***YouTube üzərindən axtarış üçün açar sözlər: “Qarabağ şikəstəsi”, zərbi-muğam, Arif Babayev.***


*Nizami Gəncəvi*


*Asəf Zeynallı*

# ROMANS VƏ QƏZƏL

***Romans*** – səs və instrumental (çox zaman fortepianoda) müşayiətlə oxunan musiqi əsəridir. Azərbaycanda romans janrının yaradıcısı, məşhur "Ölkəm", "Sərhədçi", "Sual", "Seyran" romanslarının müəllifi bəstəkar Asəf Zeynallı olub.

Azərbaycan musiqisində romans-qəzəl deyilən bir janr da var. Romans-qəzəl janrı 1940-cı illərdə Üzeyir Hacıbəylinin yaradıcılığında meydana gəlib. Dahi Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə Üzeyir Hacıbəyli şairin iki qəzəli əsasında "Sənsiz" (1941) və "Sevgili canan" (1943) romanslarını yazdı. Bununla da romans-qəzəl janrının təməlini qoydu.

"Sənsiz" və "Sevgili canan" romans-qəzəlləri musiqi üslubu baxımından özünəməxsus orijinallığı, ahəngdar milli koloriti ilə fərqlənir. Üzeyir Hacıbəylinin hər iki romansı qəlblərə sirayət edən ifadəli melodiyaya malikdir.

Üzeyir Hacıbəylinin "Sənsiz", "Sevgili canan" və Asəf Zeynallının "Ölkəm" romanslarının ilk ifaçısı dünya şöhrətli müğənni Bülbül olub.

***Mahnı öyrənək***

## ÖLKƏM

*Musiqisi Asəf Zeynallının,*
*sözləri Cəfər Cabbarlınındır.*


***Bülbül***

Şiş ucları buludlarla döyüşən,
Dağlarında buzları var ölkəmin.
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.
Verimli torpağı, geniş çölləri,
Çalışqan ərləri, igid elləri,
Böyük dənizlər, dəmiryolları,
Keçidləri, rizləri var ölkəmin.
Göllərində ördəkləri üzərlər,
Çöllərində maralları gəzərlər,
Güllərindən gəlinlər tac bəzərlər,
Ceyran gözlü qızları var ölkəmin.
Coşqun Xəzər oynar ayaqlarında,
İşıq saçan nefti torpaqlarında,
Tarixlərin qızıl yarpaqlarında
Dadlı-dadlı sözləri var ölkəmin.

Tofiq Quliyev, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Ağabacı Rzayeva, Şəfiqə Axundova, Ramiz Mustafayev, Vasif Adıgözəlov və digərləri romans janrının gözəl nümunələrini yaratmışlar. Belə romans-qəzəllərdən biri də Süleyman Ələsgərovun Məhəmməd Füzulinin qəzəlinə yazdığı "Vətənimdir" romansıdır.

## *Musiqi dinləyək*

### VƏTƏNİMDİR

*Musiqisi Süleyman Ələsgərovun,*
*sözləri Məhəmməd Füzulinindir.*





**Məhəmməd Füzuli**

Pənbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim.

Canı canan diləmiş, verməmək olmaz, ey dil!
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.

Edəməm tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim.

## *Mahnını yada salaq və oxuyaq*

### QALİBLƏR MAHNISI

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Ələkbər Ziyatayındır.*

## Sual və tapşırıqlar

***1. Romans nədir?***

***2. Romans-qəzəl nədir?***

***3. Üzeyir Hacıbəylinin yaratdığı hansı romans-qəzəlləri tanıyırsınız?***

***4. "Romans" və "romans-qəzəl" janrlarının oxşar və fərqli cəhətlərini araşdırın. Hansı əlamətləri ilə onlar bir-birinə bənzəyir?***

***5. Məşhur müğənni Bülbül haqqında araşdırma aparın. Müğənninin əsl ad və soyadını dəqiqləşdirin.***

14

# ÖZÜNÜZÜ YOXLAYIN

| | | |
|---|---|---|
| XALQ VƏ BƏSTƏKAR MAHNILARI | Şeir | Xalq, yaxud bəstəkar melodiyası |
| AŞIQ HAVALARI | Aşıq poeziyası | Aşıq melodiyası |
| MUĞAMLAR | Qəzəl | Muğam melodiyası |
| ZƏRBİ-MUĞAMLAR | Aşıq, yaxud xalq poeziya nümunəsi | Ritmik muğam melodiyası |
| ROMANS-QƏZƏL | Qəzəl | Bəstəkar musiqisi |








Əsrlər boyu poeziya insanın mənəvi dünyasını zənginləşdirib, ona yaşamaq, yaratmaq və gözəlliklərdən zövq almaq imkanı verib. Qoşmalar, bayatılar, nazlamalar, oxşamalar, qəzəllər və gəraylılarla yanaşı, insanın ruhunu oxşayan, qanını coşduran, onu qəhrəmanlıqlara səsləyən, Vətəni, ananı, bəşəriyyəti sevməyə çağıran nəğmələr də mövcuddur. Hər birimizin sevə-sevə zümzümə etdiyimiz nəğmələr elə yuxarıda sadaladığımız poeziya nümunələrinin əsasında yaranıb. Şeir — sözün yaratdığı möcüzədir, musiqi isə səsin. Sözlə musiqi birləşəndə dünyaya gözəllik gəlir.

# Musiqi və təsviri incəsənət



15

# MUSİQİDƏ DƏNİZ MÖVZUSU

Musiqidə zəngin təbiət çalarları var. Diqqətlə dinləsək, biz müxtəlif melodiyalarda göy gurultusunun, dəniz uğultusunun, su şırıltısının, xəzəl xışıltısının və s. səsini duya bilərik. Bəzən rəssam musiqidən aldığı təəssüratlarla gözəl təsviri incəsənət əsəri yaradır. Ya da əksinə, bəstəkar gözəl incəsənət əsərlərindən vəcdə gəlib musiqi yaradır.

Rus bəstəkarı Nikolay Rimski-Korsakovun "Sadko" operasından "Okean-göy dəniz" simfonik lövhəsini dinlədikdə, rəssam Nikas Safronovun "Açıq-mavi rəngli dəniz dalğaları" əsəri göz önünə gəlir.

***Musiqini yada salaq və dinləyək***

**N.RİMSKİ-KORSAKOVUN "SADKO" OPERASINDAN "OKEAN-GÖY DƏNİZ"**



***Nikas Safronov. "Açıq-mavi rəngli dəniz dalğaları"***



***"Sadko" operasından***

Deməli, musiqinin demək istədiyini təsviri incəsənət əsərləri də deyə bilir. Hətta musiqidə və rəssamlıqda işlədilən tonallıq, kolorit, rəngarənglik kimi ortaq terminlər də var.

Qara Qarayevin "Dənizi fəth edənlər" adlı sənədli filminə yazdığı musiqidə də gərgin, dalğalı dəniz obrazı var.

***Musiqi dinləyək***

**"Dənizi fəth edənlər" filmindən bir parça**

*Musiqisi Qara Qarayevindir.*

Bu musiqi əsərini dinləyəndə ucsuz-bucaqsız Xəzərimizin həm coşqun, həm də sakit anları göz önünə gəlir.



***Tahir Salahov***



***Tahir Salahov. "Təmirçilər"***

Xalq rəssamı Tahir Salahovun "Təmirçilər" əsərində rəssamın doğma Xəzərə olan sevgisi aydın sezilir.

Həm Qara Qarayev, həm də Tahir Salahov dəniz obrazı yaradıb. Hər ikisi mavi Xəzəri əbədiləşdirib – Qara Qarayev musiqidə, Tahir Salahov isə təsviri incəsənətdə.

***Mahnı dinləyək***

## SƏNSƏN ÜRƏYİM

*Musiqisi Ramiz Mirişlinin,*
*sözləri Tofiq Bayramındır.*

**I**

Gəzirəm Xəzəri yara-yara,
Zəhmətin nur verir bu diyara.
Sənsən ürəyim, arzu-diləyim,
Sənsən ürəyim, eşqim, diləyimsən...

***Nəqərat:***
Sənsən, sənsən,
Xəzər, mənim ürəyimdə
Sənsən, sənsən Xəzər,
Mənim ürəyimdəsən!..

**II**

Hər gecə sahili seyr edərkən,
Ulduzlar göz vurur, tez gəlim mən,
Sular "gəl" deyir, yarım gözləyir...
Sular "gəl" deyir, səni gözləyir, yar.

**III**

Sən mənim solmayan baharımsan,
Dağlartək əyilməyən vüqarımsan,
Sənsən ürəyim, arzum-diləyim,
Eşqim, diləyimsən!..

### Sual və tapşırıqlar

***1. N.Rimski-Korsakovun "Sadko" operası ilə N.Safronovun "Açıq-mavi rəngli dəniz dalğaları" əsərini nə birləşdirir?***

***2. "Sənsən ürəyim" mahnısı göz önündə hansı mənzərəni canlandırır?***

***3. Qara Qarayevin Yevgeni Dolmatovskinin sözlərinə (tərcümə edəni Yusif Həsənbəy) bəstələdiyi "Gənclik mahnısı"nı dinləyin. Mahnıda Xəzərdə salınmış şəhər obrazı öz əksini necə tapıb?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Qara Qarayev, "Gənclik mahnısı".***



16

# MUSİQİLİ LÖVHƏLƏR VƏ TƏSVİRİ SƏNƏT

Hər hansı musiqi alətini gördükdə və ya musiqi ilə əlaqədar bir təsviri sənət nümunəsinə tamaşa etdikdə mütləq hansısa bizə tanış olan melodiya yadımıza düşür. Musiqi ifaçılarının təsviri hələ qədim Misir və Hindistan abidələrində də öz əksini tapmışdır.





Toğrul Nərimanbəyovun “Bakıda toy” adlandırdığı tabloda Bakı adət-ənənəsinə uyğun keçirilən toy təsvir edilir. Tablodakı təsvir sanki musiqi sədalarını olduğu kimi çatdırır. Nəinki insanlar, hətta səmada quşlar belə musiqinin təsiri altındadır.



*Toğrul Nərimanbəyov*



*“Bakıda toy”*



*“Buzovna kəndində bayram”*

## *Musiqi dinləyək və notla oxuyaq*

### TƏRƏKƏMƏ
*(Azərbaycan xalq rəqsi)*



## 16

“Tərəkəmə” qədim xalq rəqsidir. “Tərəkəmə”, əsasən, maldarlıqla məşğul olan və Azərbaycanın müxtəlif yerlərində məskunlaşan köçəri tərəkəmə tayfalarının rəqs nümunəsidir. “Tərəkəmə” Azərbaycan xalq rəqsi 6/8 xanə ölçülü, şən xarakterlidir. Cəld tempə malik melodiyası var. “Tərəkəmə” rəqsi ilə Toğrul Nərimanbəyovun “Buzovna kəndində bayram” tablosunun əhvali-ruhiyyəsi uyğun gəlir. Bakının Buzovna kəndindəki adi həyətlərdən biri təsvir olunur. Rəsmin mərkəzində klarnet, zurna, nağara üçlüyü təsvir olunur. Bu üçlüyün ifa etdiyi rəqsin sədaları altında uşaqlar rəqs edirlər. “Buzovna kəndində bayram” tablosundakı təsvir üslubu şən xarakterli Azərbaycan rəqslərinin ritmi ilə səsləşir. Rəssamın “Bakıda toy”, “Mahnı”, “Oxuyan aşıq” tablolarına baxdıqda da şən, gümrah xarakterli musiqi nümunələrimiz yada düşür.

***Mahnı öyrənək***

### MƏNİM BAĞIM

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Gəray Fəzlinindir.*

**I**

Gəlin, ay uşaqlar,
Gəlin bağıma.
Baxın hər gülümə,
Hər yarpağıma.

**II**

Burda mən neçə növ,
Ağac əkmişəm.
Hər ağacın dibinə,
Arx da çəkmişəm.

**III**

Mənə qonaq gəlsin,
Hər oğlan, hər qız.
Bağım bar verəcək,
Bu gələn payız.



6/8 xanə ölçülü “Mənim bağım” mahnısının çox sadə və tez yadda qalan melodiyası var.

### Sual və tapşırıqlar

***1. Toğrul Nərimanbəyovun hansı əsərlərində musiqi ansamblı öz əksini tapmışdır?***
***2. “Tərəkəmə” rəqsi haqqında nə deyə bilərsiniz?***
***3. Ansambl nədir?***
***4. “Tərəkəmə” rəqsininin musiqisini dinləyin. Bu rəqs ilə Toğrul Nərimanbəyovun “Buzovna kəndində bayram” tablosunun əhvali-ruhiyyəsini müqayisə edin.***
***YouTube üzərindən axtarış üçün açar sözlər: Azərbaycan milli rəqsləri, “Tərəkəmə” rəqsi.***



17

# MUĞAM DƏSGAHLARI

Muğamlar iki cür olur: muğam dəsgahları və zərbi-muğamlar.

Muğam dəsgahları ← MUĞAMLAR → Zərbi-muğamlar

***Dəsgah*** – bütün tərkib hissələri ilə birlikdə ifa olunan muğama deyilir. Çox zaman muğam dəsgahları **çoxhissəli vokal-instrumental poema** da adlandırılır. Muğam dəsgahı, adətən, aşağıdakı tərkib hissələrindən ibarət olur:




Vokal-instrumental muğam dəsgahları qəzəllər əsasında oxunur.

***Musiqi dinləyək:*** **"Rast" dəsgahından bir parça**

Dinlənilən parçadan görünür ki, muğamı xanəndə oxuyur, lakin qavalda ritm tutulmur və ifaçını yalnız tar və kamança müşayiət edir.



Toğrul Nərimanbəyov. “Muğam”

“Rast” muğam dəsgahını dinləyərkən göz önünə Xalq rəssamı Toğrul Nərimanbəyovun “Muğam” tablosu gəlir. Əsərdə muğam üçlüyü təsvir olunub. Bu iki əsərin — “Rast” muğam dəsgahının və “Muğam” tablosunun xarakteri bir-birinə uyğundur.

## *Notla birsəsli oxuyaq*

### BİZİM ÖLKƏ

***(Azərbaycan xalq mahnısı)***




Bu xalq mahnısı “Rast” muğamına əsaslanıb.

## *“Rast” muğamı üstündə mahnı oxuyaq*

### BİP-BİPİN NƏĞMƏSİ

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Teymur Elçinindir.*

Uçdu göylərə
Bizim peykimiz,
Söylədi yerə:
Yol gedirik biz.

***Nəqarət:***
Bip-bip, bip-bip,
Göylər min rəngdir.
Burda ulduzlar,
Gör nə qəşəngdir! } 2

Günəşdən, Aydan
Salam var sizə,
Nəğmə deyirəm,
Uşaqlar, sizə.

***Nəqarət:***
Bip-bip, bip-bip,
Dərindir göylər.
Burda hər ulduz,
Min nağıl söylər. } 2

Uçuram Marsa
Dalımca baxın,
Ulduzlar mənə
Yaxındır, yaxın.

***Nəqarət:***
Bip-bip, bip-bip
Gözləyin bir az
Görüşərik biz
Darıxmaq olmaz. } 2

Fikrət Əmirovun 6/8 xanə ölçüsündə, oynaq, şən, rəqs xarakterli “Bip-bipin nəğməsi” “Rast” muğamı üstündə yazılıb.

## Sual və tapşırıqlar

***1. Muğam dəsgahı nədir?***
***2. Muğam dəsgahının tərkib hissələri necə adlanır?***
***3. Arif Babayevin ifasında “Rast” muğam dəsgahını dinləyin və Toğrul Nərimanbəyovun “Muğam” tablosu ilə müqayisə edin.***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Arif Babayev, “Rast” muğam dəsgahı.***

18

# MUSİQİDƏ SÜLH MÖVZUSU

1949-cu ildə Parisdə keçiriləcək Sülh Tərəfdarlarının Birinci Ümumdünya Konqresinin reklam plakatını məşhur ispan rəssamı Pablo Pikasso işləmişdi. Plakatda dimdiyində zeytun budağı tutmuş ağ göyərçin təsvir edilmişdi. Əsərin adı "Sülh göyərçini"di.

Sülh mövzusu Azərbaycan ədəbiyyatının, təsviri incəsənətinin və musiqisinin aparıcı mövzusudur.



***Pablo Pikasso***



***"Sülh göyərçini"***



***Kamil Nəcəfzadə."Ana və uşaq"***

Kamil Nəcəfzadənin "Ana və uşaq" əsərində öz körpəsini qoruyan qəlbi sülh arzulu ana obrazı təsvir edilmişdir. Bu əsərə tamaşa etdikdə Qara Qarayevin "Məktəblilərin sülh haqqında mahnısı" yada düşür.

Böyük Azərbaycan bəstəkarı Qara Qarayevin marş tempində, təntənəli səslənən "Məktəblilərin sülh haqqında mahnısı" ilə artıq tanışlığımız var. Mahnı "Rast" muğamı üzərində yazılmışdır.

***Mahnını yada salaq və notla oxuyaraq dirijorluq edək***

### QARA QARAYEVİN "MƏKTƏBLİLƏRİN SÜLH HAQQINDA MAHNISI"



## *Musiqi dinləyək:* Cövdət Hacıyevin "Sülh uğrunda" simfonik poemasından bir parça



*Cövdət Hacıyev*

Cövdət Hacıyev "Sülh uğrunda" əsərində dövrünün mühüm problemlərini işıqlandırıb. Əsəri dinlədikcə göz önünə xeyir və şər qüvvələrin mübarizəsi gəlir. Sonda xeyir şərə qalib gəlir.

Cövdət Hacıyev, həmçinin simfoniya, oratoriya, ballada, sonata kimi bir sıra dəyərli musiqi əsərlərinin müəllifidir. Bəstəkar, eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Aqşin Əlizadə, Oqtay Kazımi, Oqtay Rəcəbov, Nəriman Məmmədov, Ramiz Mirişli, Gülnaz Abdullazadə, Eldar Mansurov, Cavanşir Quliyev, Rəşid Nəsiboğlu kimi bəstəkarların yetişməsində onun böyük rolu var.

## *Mahnını notla və sözləri ilə oxuyaq*

### ZƏFƏR BİZİMDİR

*Musiqisi Şəfiqə Axundovanın,*
*sözləri Abdulla Şaiqindir.*




## Suallar



*1. Pablo Pikasso kimdir və onun hansı əsərlərini tanıyırsınız?*

*2. Cövdət Hacıyevin "Sülh uğrunda" simfonik poemasının əsas mövzusu nədir?*

*3. Bəstəkar Rəşid Şəfəqin "Göyərçinik biz" nəğməsini dinləyin. Göyərçinin sülh simvolu olması mahnıda necə təsvir edilir?*

*YouTube üzərindən axtarış üçün açar sözlər: Rəşid Şəfəq, "Göyərçinik biz".*

19

# MUSİQİDƏ NİZAMİ GƏNCƏVİ OBRAZI



*Qəzənfər Xalıqov*

Dahi Nizami Gəncəvinin ilk təsvirini 1940-cı ildə dahi şairin anadan olmasının 800 illiyi münasibəti ilə Xalq rəssamı Qəzənfər Xalıqov işləmişdir.

Nizami Gəncəvinin Bakıda və Gəncədə ucalan möhtəşəm abidələrinin müəllifi Xalq rəssamı Fuad Əbdürrəhmanovdur.

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov dahi Nizaminin obrazını simli alətlər orkestri üçün yazdığı "Nizami" simfoniyasında böyük sənətkarlıqla əbədiləşdirib. Dahi Nizami obrazı Üzeyir Hacıbəylinin "Nizami" kantatasında, Süleyman Ələsgərovun "Nizami" simfonik poemasında, Ramiz Mustafayevin "Nizami" oratoriyasında öz əksini tapıb.



*Fikrət Əmirovun portreti*

Fikrət Əmirov da "Nizami" simfoniyasını şairin 800 illik yubileyinə həsr etmişdir. Bu əsər sonradan təkcə Azərbaycanda deyil, Rusiyada, Almaniyada, Fransada, ABŞ-da ən görkəmli dirijorlar tərəfindən səsləndirilmişdir. Fikrət Əmirovun "Nizami" simfoniyasını dinlədikcə dahi Nizami Gəncəvinin portreti göz önündə canlanır.

***Musiqi dinləyək:*** **Fikrət Əmirovun "Nizami" simfoniyasının II hissəsindən bir parça**

**BUNU DA BİLİN**

**Azərbaycanda simfonik musiqinin, o cümlədən simfoniya janrının yaranması XX əsrin ikinci yarısına təsadüf edir. Görkəmli Azərbaycan bəstəkarlarından Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Arif Məlikov, Xəyyam Mirzəzadə, Aqşin Əlizadə, Firəngiz Əlizadə və başqaları simfoniya janrının gözəl nümunələrini yaratmışlar.**

Dahi Nizaminin obrazı görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Əfrasiyab Bədəlbəylinin də yaradıcılığında "Nizami" operası ilə əbədiləşib. Operanın librettosu bəstəkarın özü tərəfindən, Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının motivləri əsasında yazılıb.

## 19

***Musiqi dinləyək:*** **Əfrasiyab Bədəlbəylinin "Nizami" operasından "Rənanın mahnısı"**

Nizami Gəncəvinin 800 illik yubileyi ərəfəsində Üzeyir Hacıbəyli tərəfindən şairin qəzəlləri əsasında artıq romans-qəzəl kimi yaxşı tanıdığımız "Sənsiz", "Sevgili canan" romansları bəstələndi.

***Mahnı öyrənək***

### ODLAR YURDU

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Teymur Elçinindir.*



**I**

Qəlbini ucaltmış göyə məşəltək,
Bakıdır köksündə döyünən ürək,
Gülür gözlərində böyük gələcək.

***Nəqərat:***
Eşitsin obalar, ellər bu səsi,
Bu gün bayram edir Odlar ölkəsi.

**II**

Dostluğun eşqilə ucalırıq biz,
Gül açır, bar verir diləklərimiz,
Bir vurur hər zaman ürəklərimiz.

***Nəqərat:***

**III**

Sevinclə ötüşür onun hər anı,
Dillərdə dolaşır şöhrəti, şanı,
Zəfərlər ucaldır Azərbaycanı.

***Nəqərat:***

**Sual və tapşırıqlar**

***1. İlk dəfə Nizami Gəncəvinin portretini kim işləmişdir?***
***2. Nizami Gəncəvinin Gəncədə və Bakıda qoyulmuş abidələrinin müəllifi kimdir?***
***3. "Nizami" simfoniyası hansı bəstəkar tərəfindən yazılıb?***

20

# MUSİQİDƏ MƏHƏMMƏD FÜZULİ OBRAZI

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin həyat və yaradıcılığı çoxcəhətli və zəngindir. Təkcə ana dilində deyil, ərəb və fars dillərində də həmişəyaşar əsərlər müəllifi olan M.Füzuli klassik poeziyanın nadir incilərini yaratmışdır. Onun “Leyli və Məcnun” poeması əsasında dahi bəstəkar Üzeyir Hacıbəyli 1908-ci ildə eyniadlı opera yazmışdır. O bu muğam-opera ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera janrının əsasını qoymuşdur. Operanın libretto müəllifi də bəstəkarın özüdür.





*“Leyli və Məcnun” operası səhnəmizdə*

**BUNU DA BİLİN**

**Qadın və kişilərdən ibarət xor böyük xor kollektivi adlanır. Çox zaman bu tip xora qarışıq xor deyilir. Burada qadın səsləri “soprano” və “alt”, kişi səsləri isə “tenor”, “bariton” və “bas” adlanır.**

## *Notla oxuyaq*

### Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operası “Leyli və İbn Salamın dueti”ndən bir parça



## *Musiqi dinləyək*

### C.Cahangirovun "Füzuli" kantatasının II hissəsindən bir parça

Cahangir Cahangirovun Məhəmməd Füzulinin qəzəllərinə yazdığı "Füzuli" kantatasında dahi şairin möhtəşəm obrazı yaradılıb. Bu əsəri dinlədikdə böyük Füzulinin portreti göz önünə gəlir. Kantatanın əsasını Füzulinin "Söz haqqında", "Şəbi-hicran" və "Məni candan usandırdı" adlı üç qəzəli təşkil edir. "Füzuli" kantatası bəstəkarın yaradıcılığında şah əsərə çevrilib.

Rəssam Sadıq Şərifzadə 1958-ci ildə işlədiyi "Məhəmməd Füzuli" tablosu ilə böyük şairin tarixin yaddaşına əbədi həkk ediləcək portretini yaratmışdır.



***Sadıq Şərifzadə. Məhəmməd Füzulinin portreti***

## *Mahnı oxuyaq*

### BEŞİK NƏĞMƏSİ

***(Azərbaycan xalq mahnısı)***

**I**

Layla dedim, yatasan,
Qızılgülə batasan.
Gül yastığın içində,
Şirin yuxu tapasan.

**II**

Könlümün bir gülüsən,
O gülün bülbülüsən.
Sinəmin sünbülüsən,
Səni, balam, sevirəm.

**III**

Layla dedim həmişə,
Karvan gedər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

"Beşik nəğməsi" əsrlərin yaddaşından süzülən laylalarımız əsasında bəstələnib. Mahnı "Segah" üstündə, 2/4 xanə ölçüsündədir. Həzin səslə, aramla ifa olunur.

### Sual və tapşırıqlar

***1. Azərbaycanda, eləcə də Şərqdə ilk operanı kim yaradıb?***
***2. "Leyli və Məcnun" operası hansı şairin əsərinə əsaslanır?***
***3. Füzuli obrazını incəsənətdə ilk dəfə hansı rəssam yaradıb?***



**21**

# MUSİQİDƏ ANA OBRAZI



***Rafael Santi. "Florensiya madonnası"***

Ana obrazı bütün dövrlərdə ədəbiyyatın, musiqinin və incəsənətin aparıcı mövzusu olub. Qədim yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud"da ana obrazı Vətən rəmzi kimi ümumiləşdirilir, ana haqqı Tanrı haqqı kimi qiymətləndirilir. Dastanda mükəmməl qadın və ana obrazı yaradılıb. Bu, Burla xatundur. O həm güclü qadın, həm sədaqətli həyat yoldaşı, həm də gözəl anadır. Döyüşdə ağır yaralanmış oğlu Buğacı ana südü, dağ çiçəyi ilə sağaldan ana obrazı dastanda Vətənə sevginin, torpağa bağlılığın simvolu kimi canlanır.

Məşhur rəssam Rafael Santinin yaradıcılığında ana obrazı "Florensiya madonnası" əsərində əbədiləşib.



***Cahangir Cahangirov***

Ana haqqında yazılmış ən uğurlu mahnılardan biri Cahangir Cahangirovun İslam Səfərlinin sözlərinə bəstələdiyi "Əziz ana" mahnısıdır. Bu mahnının ilk ifaçısı Xalq artisti Rəşid Behbudov olub.

***Musiqi dinləyək və notla oxuyaq***

## ƏZİZ ANA

*Musiqisi Cahangir Cahangirovun,*
*sözləri İslam Səfərlinindir.*



## BUNU DA BİLİN

**Cahangir Cahangirov "Arazın o tayında" xor və simfonik orkestr üçün vokal-simfonik poemanın, "Dostluq haqqında mahnı", "Füzuli" və "Nəsimi" kantatalarının, "Sabir", "Hüseyn Cavid — 59", "Böyük Qələbə" oratoriyalarının, "Azad", "Müğənninin taleyi" operalarının, "Yenilməz batalyon", "Dəli Kür" və s. bədii filmlərinə yazılmış musiqi nümunələrinin müəllifidir.**



***Mikayıl Abdullayev. "Sevinc"***

Mikayıl Abdullayev "Sevinc" tablosunda xoşbəxt ana və uşaq obrazı işləyib. Bu əsər xəyalımızda C.Cahangirovun "Əziz ana" mahnısının oyatdığı sevimli ana obrazının rəsm təzahürüdür.

***Mahnı öyrənək***

## ANAM

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Qəşəm İsabəylinindir.*

**I**

Anam təzə don geyib,
Hörüb saçını təzə,
Ay ata, bax anama,
Gör nə yaraşır bəzək?!

***Nəqarat:***

Al, bu da gözmuncuğu,
Ay mehriban, ay əziz!
Yoxsa sənə göz dəyər,
Neyləyərik onda biz?!

**II**

Aralı dur, ay kişi,
Saçına əl vurma, gəl!
Qoy bir öpüm-oxşayım
Özüm hamıdan əvvəl.

"Anam" mahnısı rəqs xarakterli, oynaq, 6/8 xanə ölçülüdür. Rəqs xarakterli mahnılar mahnı-rəqs adlanır.

## Sual və tapşırıqlar

***1. Cahangir Cahangirovun hansı əsərlərini tanıyırsınız?***

***2. Ana mövzusunda rəsm əsərləri çəkmiş hansı Avropa və Azərbaycan rəssamlarını tanıyırsınız?***

***3. Tarzən Möhlət Müslümovun ifasında bəstəkar Cahangir Cahangirovun "Əziz ana" mahnısının instrumental versiyasını dinləyin. Mahnı ilə rəssam Mikayıl Abdullayevin "Sevinc" tablosu arasındakı oxşarlığı nədə görürsünüz?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Cahangir Cahangirov, Möhlət Müslümov, "Əziz ana".***



22

# MUSİQİDƏ NOVRUZ BAYRAMI



*Arif Hüseynov.*
*Novruz silsiləsindən*
*“Od çərşənbəsi”*

Novruz insanlar arasında birlik və mehribanlıq, qarşılıqlı mərhəmət və diqqət, torpağa, insanlara məhəbbət, ruzi-bərəkət bayramıdır.

Novruz süfrəsi nemətlərlə dolu olar, qız-gəlin təzə yaylıq bağlayar, təzə paltar geyinər. Evlərdə bayram hanası qurular, bayram xalçaları toxunar.

Novruz süfrəsinin hazırlanmasına axır çərşənbədən başlanar. Süfrəyə qoymaq üçün Novruz şirniyyatı bişirilər. Bayram xonçalarına şəkərbura, paxlava, şəkər-çörəyi, noğul, nabat, püstə, badam, qoz, fındıq, tut qurusu, boyanmış yumurta və s. ləziz nemətlər yığılar. Xonçanın ətrafına ailə üzvlərinin sayı qədər şam düzülər.

Azərbaycanda lap qədimdən Novruz bayramı ərəfəsində “Sayaçı”, “Yel baba”, “Qodu-qodu”, “Kosa-kosa”, “Qaravəlli” və s. kimi milli xalq oyunları oynanılardı.

Novruzda “Mirzəyi”, “Vağzalı”, “Uzundərə”, “Novruzu” və s. milli rəqslər oynanılar. Novruz bayramı təsviri incəsənətin sevilən mövzularındandır. Arif Hüseynovun Novruz silsiləsindən “Od çərşənbəsi”, “Yel çərşənbəsi” əsərləri bu mövzuda işlənmişdir.

## *Notla oxuyaq və əl çalmaqla müşayiət edək*

### UZUNDƏRƏ
*(Azərbaycan xalq rəqsi)*



*Mahnı oxuyaq*

## NOVRUZ GƏLDİ

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Sevinc Nuruqızınındır.*

**I**

Novruz gəldi bu gecə,
Azərbaycan elinə.
Qucaq açdıq oduna,
Alovuna, yelinə.

**II**

Bişdi şəkərburalar,
Yumurtalar boyandı.
Yer, göy, çəmən, çöl, dərə,
Bütün aləm oyandı.

***Nəqərat:***
Nənələr dəmə qoydu,
Yenə bayram aşını.
Zəfəranla, kişmişlə
Bəzədilər başını.

**III**

Kosayla Keçəl gəlib,
İstədi bayram payı.
Papaq atdıq evlərə,
Olduq Kosanın tayı.

**IV**

Bayram tonqallarının,
Alovu qalxdı göyə.
Tullandıq tonqallardan,
Nəğmələr deyə-deyə.



Şən və oynaq xarakterli bu mahnı 6/8 xanə ölçüsündə səslənir.

**Sual və tapşırıqlar**



***1. Novruz bayramı haqqında daha nə bilirsiniz?***

***2. Novruz bayramında hansı rəqslər oynanılır?***

***3. “Novruz gəldi” mahnısında sadalanan hansı Novruz adətləri bu günədək qorunub saxlanılıb?***

***4. Aynur İsgəndərlinin ifasında Oqtay Rəcəbov və Sevinc Nuruqızının “Novruz gəldi” mahnısını dinləyin. Mahnıda Novruz haqqında hansı məlumatlar verilir? İfa tərzi ilə mahnının musiqisi və mətni arasında hansı bağlılıq var?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: “Novruz gəldi”, Novruz haqqında mahnı, Aynur İsgəndərli.***

23

# ÖZÜNÜZÜ YOXLAYIN


Tahir Salahov


"Təmirçilər"


"Qara Qarayevin portreti"


Toğrul Nərimanbəyov


"Buzovna kəndində bayram"


"Bakıda toy"


Pablo Pikasso


"Sülh göyərçini"


"Leyli və Məcnun" operasından səhnə


Məhəmməd Füzuli


Mikayıl Abdullayev. "Sevinc"


Arif Hüseynov. Novruz silsiləsindən "Od çərşənbəsi"

# MUSİQİDƏ OBRAZ



# MUSİQİDƏ KARVAN OBRAZI



***Musiqi dinləyək:*** **Soltan Hacıbəyovun “Karvan” simfonik lövhəsindən bir parça**



***Soltan Hacıbəyov***

“Karvan” simfonik lövhəsini dinlədikcə insanın gözləri önündə ucsuz-bucaqsız səhra canlanır, sanki uzaqdan gələn dəvə karvanının addım səsləri eşidilir. Karvan getdikcə yaxınlaşır və səslənmənin gücü artır. Karvan uzaqlaşdıqca səslənmənin də gücü azalır. Tədricən karvan səhrada gözdən itir və səslənmə sona yetir.

Karvanın hərəkətinin ritmini əl çalmaqla tutaq:



**PP** < **ffff** > **PPP**

Göründüyü kimi, səslənmə 2 piano dinamik səslənmədən 4 forte gücünə qədər artır. Karvan bizi tərk etdikdə səslənmə tədricən 4 fortedən 3 pianoya qədər azalır və biz karvanı artıq “görmürük”.

4 çərək ölçülü xanədən ibarət olan bu ritm quruluşu görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Soltan Hacıbəyovun “Karvan” simfonik lövhəsində bütün əsər boyu müşahidə edilir.

1945-ci ildə Soltan Hacıbəyov “Karvan” simfonik lövhəsini yaradır. 1955-ci ildə əsər Niyazinin dirijorluğu ilə lentə alınır.

Rus musiqisində karvan mövzusuna ilk dəfə Aleksandr Borodin müraciət etmişdir. O, “Orta Asiyada” adlı simfonik əsərində Asiya səhralarında qızmar günəş altında aramla addımlayan dəvə karvanı obrazını musiqi vasitəsilə böyük sənətkarlıqla təsvir etmişdir.



*Aleksandr Borodin*

## *Musiqi dinləyək və müqayisə edək*

### A.BORODİNİN "ORTA ASİYADA" SİMFONİK ƏSƏRİNDƏN BİR PARÇA

## *Mahnı öyrənək*

### ÜRƏK DOYMAZ BAKIDAN

*Musiqisi Şəfiqə Axundovanın,*
*sözləri İsgəndər Coşqunundur.*

**I**

Sularından dönə-dönə içəsən,
Yollarından səhər-axşam keçəsən.
Seyr edəsən onu gündüz, gecə sən,
Göz doysa da, doymaz ürək Bakıdan.

***Nəqərat:***

Dünya sənə heyran, can Vətənim, can,
Sən nə bəxtəvərsən, Azərbaycan!
Bakıtək şən, bəxtiyar,
Ömrü bahar övladın var,
Göz doysa da, doymaz ürək Bakıdan.

**II**

Bağlarında qara şanı, ağ şanı,
Qızıl qumun min bir şəfa dərmanı.
Günəş odda qovuranda aranı,
Əskik olmaz sərin külək Bakıdan.

***Nəqərat:***



**Sual və tapşırıqlar**

***1. Rus bəstəkarlarından kimlər karvan mövzusuna müraciət etmişdir?***

***2. Səhrada hərəkət edən dəvə karvanının addım səslərini əl hərəkətləri ilə səsləndirin.***

***3. Soltan Hacıbəyovun "Karvan" simfonik lövhəsini dinləyin. Səhrada hərəkət edən dəvə karvanının hərəkəti musiqi ifadə vasitələri ilə necə təsvir olunub? Hisslərinizi sözlərlə ifadə edin.***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Soltan Hacıbəyov, "Karvan" simfonik lövhəsi.***



25

# MUSİQİDƏ QƏHRƏMANLIQ OBRAZI

*Musiqi dinləyək*

## ÜZEYİR HACIBƏYLİNİN "KOROĞLU" OPERASINDAN "UVERTÜRA"

Bəstəkar Üzeyir Hacıbəyli "Koroğlu" operasını "Koroğlu" dastanının motivləri əsasında işləyib. Bu qəhrəmanlıq dastanının əsasında 1960-cı ildə eyniadlı film də çəkilib. Filmdə xalq qəhrəmanı Koroğlunun obrazı yaradılıb. "Koroğlu" bədii filminin ssenari müəllifi Sabit Rəhman, quruluşçu rejissoru Hüseyn Seyidzadə, bəstəkarı Cahangir Cahangirovdur. Filmdə Koroğlu rolunda Əfrasiyab Məmmədov çəkilib. "Koroğlu" operasındakı "Uvertüra" xalqın yaxşı və pis günlərinin əvəzsiz yol yoldaşı olmuş, onu ruhlandırmış və mübarizəyə səsləmişdir. "Uvertüra" fransız sözü olub "açmaq" deməkdir. Əsərə çəkilmiş eyniadlı filmdəki xalq qəhrəmanı Koroğlu obrazını görəndə qulaqlarımızda "Koroğlu" operasındakı "Uvertüra" səslənir. Operada Koroğlu obrazının ilk ifaçısı Bülbül olub.

Azərbaycan xalq musiqisində qəhrəmanlarımıza, onların döyüş yoluna həsr olunmuş mahnılardan biri də "Qaçaq Nəbi" mahnısıdır.



*"Koroğlu" filmindən*

*Notla oxuyaq*

## "QAÇAQ NƏBİ"

*(Azərbaycan xalq mahnısı)*





*“Qaçaq Nəbi” filmindən. Baş rolda Həsən Turabov*

XIX əsrin sonlarında Azərbaycan torpaqlarında çar canişinlərinin hakimiyyətinə, xalqın hesabına varlananlara qarşı silahlı kəndli dəstələri yaranırdı. Belə dəstələrdən birinə xalq qəhrəmanı Qaçaq Nəbi başçılıq edirdi. Onun həyat yoldaşı, adı nağmələrdə əbədiləşmiş Həcər xanım də Qaçaq Nəbi ilə çiyin-çiyinə vuruşurdu. 1985-ci ildə “Azərbaycanfilm” kinostudiyasında çəkilən “Qaçaq Nəbi” filmi el qəhrəmanının şücaətindən bəhs edir.

**BUNU DA BİLİN**

**“Qaçaq Nəbi” filminin digər adı “Atları yəhərləyin”dir.**

***Mahnı öyrənək***

## ÖLMƏZ SƏRKƏRDƏ

*Musiqisi Süleyman Ələsgərovun,*
*sözləri Cavad Cavadlınındır.*



*Həzi Aslanov*

***Solo:*** Düşmənin gözündə qoydun kamını,
Qırdın, parçaladın istehkamını,
Döyüşə səfərbər etdin hamını.

***Xor:*** Nəslimiz adını daşıyır, Həzi,
Ölməmiş, həmişə yaşayır Həzi.

***Solo:*** Sevdin hər əsgəri övladın kimi,
Qorudun adını öz adın kimi,
Vətənin gül açdı muradın kimi.

***Xor:*** Nəslimiz adını daşıyır, Həzi,
Ölməmiş, həmişə yaşayır Həzi.

**Sual və tapşırıqlar**

***1. Uvertüra sözünün mənası nədir?***

***2. Dinlədiyiniz “Uvertüra”dakı coşqu və ruh yüksəkliyi sizdə hansı hissləri yaratdı?***

***3. “Azərbaycanın milli qəhrəmanları ədəbiyyatda, təsviri incəsənətdə və musiqidə” mövzusunda fikir mübadiləsi aparın.***



26

# MUSİQİDƏ DON KİXOT OBRAZI



***Pablo Pikasso. "Don Kixot"***

Məşhur ispan rəssamı Pablo Pikasso yazıçı Servantesin "Don Kixot" romanının qəhrəmanı Don Kixotun obrazını qravür üsulu ilə işlədiyi eyniadlı əsərdə əbədiləşdirmişdir. Romanda yazıçı parodiya və satira üslubundan istifadə etməklə İspaniyanın feodal qayda-qanunlarını tənqid edir.

Kinorejissor Qriqori Kozintsev "Don Kixot" romanının nəşr olunmasının 350 illiyi münasibəti ilə eyniadlı film çəkib. Filmin bəstəkarı Qara Qarayevdir.

Qara Qarayev sonradan "Don Kixot" filminə yazdığı musiqi əsasında "Don Kixot" simfonik qravürlərini yaradır. Beləliklə, Qara Qarayev "qravür" terminini musiqiyə bir janr kimi gətirir. Bəstəkarın bu əsəri bütün dünyada sevilir.



**BUNU DA BİLİN**

**Qravür — bərk material üzərində relyefləşdirmə və ya basma üsulu ilə çəkilmiş şəklə deyilir.**

***Musiqi dinləyək və notla oxuyaq***

## QARA QARAYEVİN "DON KİXOT QRAVÜRLƏRİ" ƏSƏRİNDƏN "SƏYAHƏT"



## *Musiqi dinləyək:* Qara Qarayevin “Don Kixot qravürləri” əsərindən “Aldonsa”

Musiqidə zəriflik, məhəbbət hissləri Aldonsanın obrazında öz təzahürünü tapır.

## *Mahnı öyrənək*

### VƏTƏN HAQQINDA MAHNI

*Musiqisi Niyazinin,*
*sözləri Süleyman Rüstəmindir.*



**I**

Əcəb ağ gündədir mənim Vətənim,
Günlər keçir bayram kimi, el gülür.
Rəngdən-rəngə girir çölüm, çəmənim,
Aşığın sazında gülür, tel gülür.

***Nəqərat:***
Gülür bağlar, uca dağlar,
Əcəb gözəldir bu şən çağlar.

**II**

Tütək çalır, deyir dağda çobanlar:
“Bizi azad edən dahi sağ olsun.
Eşidilməz artıq ahlar, fəğanlar,
Dostlar gülsün, yadlar saralıb-solsun”.
***Nəqərat:***

“Vətən haqqında mahnı” “Bayatı-Şiraz” muğamına əsaslanır, 6/8 xanə ölçüsündə, şən-oynaq xarakterlidir, orta tempdə səslənir.

Vətənpərvərlik mövzusunda yazılmış bu mahnıda doğma yurdun təbiəti sanki rəssam fırçası ilə işlənib.

**Sual və tapşırıqlar**



***1. “Don Kixot” qravürü ilə “Don Kixot” simfonik qravürləri hansı incəsənət sahələrini birləşdirir?***

***2. “Don Kixot” əsəri — Pablo Pikasso, Qriqori Kozintsev və Qara Qarayevi necə bir araya gətirib?***

***3. Qara Qarayevin “Don Kixot qravürləri” əsərindən “Aldonsa”nı dinləyin. Musiqidə Don Kixot obrazını ədəbiyyatdakı Don Kixot obrazı ilə müqayisə edin.***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Qara Qarayev, “Don Kixot qravürləri”, “Aldonsa”.***

27

# MUSİQİDƏ TƏBİƏT MƏNZƏRƏSİ

Nikolay Rimski-Korsakov deyirdi: “Gözəl rəsm əsərini mən mütləq eşidirəm və yaxşı musiqini görürəm”. Doğrudan da, Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadənin təbiət təsvirlərinin hər birinin sanki öz musiqisi var. Səttar Bəhlulzadə Azərbaycanın ecazkar təbiətini heyrətamiz ifadə vasitələri ilə çəkib.



***Səttar Bəhlulzadə. “Bakıda yaz səhəri”***

***Musiqi dinləyək:*** **Fikrət Əmirovun “Şur” simfonik muğamından bir parça**

Azərbaycan musiqisinin simfonik muğam janrı 1948-ci ildə bəstəkar Fikrət Əmirov tərəfindən yaradılmışdır. Bəstəkarın “Şur” simfonik muğamında əsrarəngiz təbiət mənzərəsi musiqi dili ilə təsvir edilir. Bəstəkarın “Kürd-ovşarı” simfonik muğamının da təsvir imkanları olduqca böyükdür.

***Notla oxuyaq***

## “ŞUR” MUĞAMININ “SİMAYİ-ŞƏMS” RƏNGİ



"Şur" muğamının "Simayi-şəms" rəngi təntənəli xarakterli, 2/4 ölçülüdür. Sol minor tonallığında olan bu melodiya tar, kamança və dəf ilə müşayiət edilir.

**BUNU DA BİLİN**

**Rəng — muğam şöbələri arasında xanəndəyə istirahət vermək üçün ifa edilən rəqsvari musiqi parçasıdır.**

***Mahnı öyrənək***

## BƏNÖVŞƏ

*Musiqisi Soltan Hacıbəyovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*



Yazda açırsan,
Ətir saçırsan.
Yerin — bağ, meşə,
Gözəl bənövşə.

***Nəqərat:***
Zərif ətrin var,
Sənin, bənövşə.
Sevir uşaqlar,
Səni həmişə.

Bağa girəndə,
Bağban dərəndə.
Qonursan döşə,
Gözəl bənövşə.

**Sual və tapşırıqlar**



***1. N.Rimski-Korsakovun təsviri incəsənət və musiqi haqqında fikirlərini təcrübədə sınayın. Hansısa bir rəsm əsərini eşitdiyiniz, hansısa musiqi parçasını gördüyünüz vaxtlar olubmu?***

***2. Səttar Bəhlulzadə, əsasən, nəyi təsvir edib?***

***3. Fikrət Əmirovun hansı simfonik muğamlarını tanıyırsınız?***

***4. Gülağa Məmmədovun ifasında Səid Rüstəmov və Mirmehdi Seyidzadənin "Gözəl Quba" mahnısını dinləyin. Bu mahnıda təbiət mənzərələri öz əksini necə tapıb?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: Səid Rüstəmov, Mirmehdi Seyidzadə, "Gözəl Quba".***

# MUSİQİDƏ NEFTÇİ OBRAZI

Neft Daşları dünyada dəniz üzərində qurulan ilk şəhər və neft platformasıdır. Tahir Salahovun “Təmirçilər” əsərində neft buruqlarını təmir etməyə yollanan təmirçilər, Xəzərin şahə qalxan dalğalarına sinə gərən Neft Daşları təsvir olunmuşdur. Qəhrəman neftçi obrazları və şahə qalxan Xəzər hər zaman təsviri incəsənət ilə yanaşı, musiqinin də diqqət mərkəzində olmuşdur.

Azərbaycan bəstəkarları bu mövzuda gözəl əsərlər yaratmışlar.

## *Musiqi dinləyək*

### NEFTÇİ QURBAN

*Musiqisi Ağabacı Rzayevanın, sözləri Hüseyn Arifindir.*



***Kamil Nəcəfzadə. “Neft Daşlarında”***

Neftçi Qurbana həsr olunmuş bu mahnı dahi müğənni Bülbülün, Rəşid Behbudovun, Gülağa Məmmədovun, Anatollu Qəniyevin və digərlərinin ifasında səslənmişdir. Rəssam Tahir Salahovun “Xəzərdə səhər”, Toğrul Nərimanbəyovun “Xəzər”, Kamil Nəcəfzadənin “Neft Daşlarında” əsərlərinə baxdıqda neftçi Qurbanın və onun kimi bir çox qəhrəman neftçinin obrazı göz önünə gəlir və qulaqlarımızda Ağabacı Rzayevanın “Neftçi Qurban” mahnısı səslənir.

Bəstəkar Tofiq Quliyevin yaradıcılığında Neft Daşları obrazı əbədiləşib. O, Neft Daşlarında yaşayıb-işləyən qəhrəman neftçilərin həyatından bəhs edən “Möcüzələr adası” bədii filminə yazdığı musiqi ilə unudulmaz bir Xəzər obrazı yaratmışdır. Bu filmə yazılmış “Neft Daşları” mahnısı uzun illərdir neftçilərin peşə nəğməsinə çevrilib.

## *Mahnını notla və sözləri ilə oxuyaq*

### TOFİQ QULİYEVİN “DOSTLUQ” MAHNISINDAN BİR PARÇA



Tofiq Quliyevin “Dostluq mahnısı” keçən əsrin 60-cı illərində çəkilmiş “Bəxtiyar” (1955) filminə yazılıb. Filmdə şanlı Xəzər neftçilərinin obrazı öz əksini tapıb.

## DOSTLUQ MAHNISI

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Ənvər Əlibəylinindir.*

**I**

Dörd dost, dörd ürək,
dörd yoldaşıq biz,
Birdir arzumuz, istəklərimiz.
Hər gün suları tən yara-yara,
Birgə gedirik biz buruqlara.

***Nəqərat:***

Ayrılmaz dostlarıq biz,
Tükənməzdir qüvvəmiz.
Qarşımızda baş əyir,
Mavi dalğalı dəniz.

**II**

Günəş nur səpir yollarımıza,
Dostluq güc verir qollarımıza.
Dostluq solmayan baharımızdır,
Hər vaxt sədaqət şüarımızdır.

***Nəqərat:***

**III**

O kəs dünyada çox bəxtiyardır,
Sadiq, ayrılmaz dostları vardır.
Dərdi, sevinci birgə bölürlər,
Birgə qəm çəkib, birgə gülürlər.



***Tofiq Quliyev***



***Ənvər Əlibəyli***



***“Qaya” vokal kvarteti***

### Sual və tapşırıqlar

***1. Neft Daşları niyə “Möcüzələr şəhəri” adlandırılır?***

***2. Əfsanəvi “Qaya” qrupunun ifasında “Neft Daşları” mahnısını dinləyin. Neft Daşları, neftçilərin həyatı və istirahəti mahnıda və ona çəkilmiş filmdə necə təsvir edilib? Neftçi olmaq arzusu yarandımı qəlbinizdə? Mahnının sözləri Xəzərə sevgini təsvir edə bilirmi?***

***YouTube üzərindən axtarış üçün açar sözlər: “Qaya” qrupu, Neft Daşları, göy dəniz əzizdir, sevgilim dənizdir.***



# MUSİQİDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN OBRAZI



*Ömər Eldarov Ümummilli lider Heydər Əliyevin büstünü işləyərkən*



*Nikas Safronov. Heydər Əliyevin portreti*

Həyatda elə insanlar var ki, onlar bütün ömrünü xalqının xoşbəxtliyi uğrunda mübarizəyə həsr edir. Belə şəxsiyyətlərdən biri də Ulu öndər Heydər Əlirza oğlu Əliyevdir. Heydər Əliyev uzun müddət Azərbaycana rəhbərlik etmiş, xalqın rifahı uğrunda var gücünü sərf etmişdir. Ümummilli liderin obrazı bir çox təsviri incəsənət nümunələrində öz əksini tapmışdır. Rus rəssamı Nikas Safronovun, Tahir Salahovun, Sakit Məmmədovun, Rafael Abbasovun əsərlərində böyük şəxsiyyətin unudulmaz obrazı yaradılıb.

Azərbaycanın Xalq rəssamı, heykəltəraş Ömər Eldarovun Bakıdakı "Heydər" heykəli və Naxçıvandakı "Heydər" büstü Ulu öndərə həsr olunan gözəl heykəltəraşlıq nümunələri hesab oluna bilər.

***Musiqi dinləyək və notla oxuyaq***

## "HEYDƏR" ORATORİYASININ II HİSSƏSİ

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Rafael Hüseynovundur.*



Oratoriyada Heydər Əliyevin parlaq şəxsiyyəti musiqi və poeziyanın vəhdətində açılır.

Oratoriyanı dinlədikdə Ulu öndərin rəssamlar tərəfindən işlənmiş portretləri göz önünə gəlir, rəhbərin nurlu, zəkalı və aydın siması, hamıya örnək ola biləcək mənalı ömür yolu yada düşür.

**BUNU DA BİLİN**

**Ulu öndər Heydər Əliyev haqqında yazılmış ilk monumental simfonik əsər Xalq artisti Arif Məlikovun "VIII simfoniya"sıdır. Simfoniya "Əbədiyyət" adlanır.**

***Mahnı öyrənək***

## ULU TORPAQ

*Musiqisi Eldar Mansurovun,*
*sözləri Nahid Hacızadənindir.*

**I**

Günəşimiz saralıbdı,
Göylərimiz qaralıbdı.
Qarabağı sar alıbdı,
Dərd bürüyüb solu, sağı
Tanrı, qurtar bu sınağı!

***Nəqərat:***
Qalx, qalx, ulu torpaq,
Qalx, qalx, ulu bayraq,
Qalx, qalx, sən, ey mərd xalq!
Yer titrəsin məhvərindən!

**II**

Ocaq sönmüş neçə yurdda,
Uca dağlar yanır odda,
Arxa Bakı, ellər darda,
Ürəyimiz göynər-göynər,
Bəsdir daha, dözdük yetər!

"Ulu torpaq" mahnısı "Bayatı-Şiraz" muğamı üzərində yazılıb, sol minor qammasındadır. Xanə ölçüsü 4/4-dür.

**Sual və tapşırıqlar**

***1. Hansı rus rəssamı Ulu öndərimiz Heydər Əliyevin portretini işləyib?***

***2. Hansı Azərbaycan rəssamları əsərlərində Heydər Əliyev obrazı yaratmışlar?***

***3. Hansı bəstəkar musiqidə Heydər Əliyevin obrazını yaratmışdır?***



# MUSİQİDƏ HİNDİSTAN MÖVZUSU



***Mikayıl Abdullayev.***
***"Hind gözəli"***

Görkəmli Azərbaycan rəssamı Mikayıl Abdullayevin "Hindistanla ikinci görüş" adlı silsilə əsərləri onun Hindistan səfərindən sonra yaranıb. Rəssam həm də Hind xalqının böyük qızı "İndira Qandinin portreti"nin müəllifidir. Mikayıl Abdullayev Hindistan mövzusunda işlədiyi silsilə əsərlərə görə "Cavahirləl Nehru" adına beynəlxalq mükafata layiq görülmüşdür.

Toğrul Nərimanbəyov, Tahir Salahov, Elbəy Rzaquliyev kimi məşhur rəssamların da hind mövzusunda əsərləri var. Heykəltəraş Ağasəlim Quliyev "Rabindranat Taqor" əsərində hind dramaturqu Rabindranat Taqorun obrazını yaradıb.



***Toğrul Nərimanbəyov.***
***"Hind lövhələri"***



***Ağasəlim Quliyev.***
***"Rabindranat Taqor"***

***Musiqi dinləyək:*** **Soltan Hacıbəyovun "Hind lövhələri" musiqi silsiləsindən bir parça**

Soltan Hacıbəyovun "Hind mövzusunda süita" adlı əsəri 1964-cü ildə yazılıb, sonralar bu süitadan istifadə etməklə bəstəkar "Hind lövhələri" adlı simfonik əsərini yaradıb.

## *Mahnını notla və sözləri ilə oxuyaq*

### MAY

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Rüfət Əhmədzadənindir.*




**I**

Aşdı-daşdı çay,
Açdı gül-çiçək.
Gəldi gözəl may,
Sevindi ürək.

***Solo:*** Günlər şən keçir,
Coşur arzular.
***Xor:*** Gətirdin bizə
Solmayan bahar.

**II**

Dağlar donunu
Atlazdan geyir,
Hər tərəf, hər yan,
Sənə “Gəl”, — deyir.

***Solo:*** Gülür baxışlar
Yaz günəşindən.
***Xor:*** Güldü, sevindi
Anamız, Vətən!



Fa major qammasında, “Rast” muğamı üstündə səslənən bu mahnının xanə ölçüsü 6/8-dır. Mahnı solo və xorun dialoqu kimi, çox tələsmədən, orta tempdə ifa edilir.

## Sual və tapşırıqlar



***1. Hansı Azərbaycan rəssamları öz yaradıcılığında Hindistanla bağlı əsərlər yaratmışlar?***

***2. Azərbaycanın hansı bəstəkarı hind mövzusuna müraciət etmişdir?***

***3. Necə düşünürsünüz, Azərbaycan bəstəkar, rəssam və heykəltəraşlarını hind mövzusunda əsərlər yaratmağa nə həvəsləndirirdi?***

# ÖZÜNÜZÜ YOXLAYIN

**Bəstəkar, şair və rəssamların adını yadınıza salın.**







**Rəsm əsərlərinin adını yadınıza salın.**




**Tapşırıq:** **Keçilmiş dərsləri təkrar edin və yekun konsertə hazırlaşın.**

# MUSİQİ LÜĞƏTİ

**6/8 ölçüsü** — altı səkkizlikdən ibarət xanə ölçüsü.
**Ansambl** — bir neçə musiqiçinin birgə ifasında iştirak edən musiqi kollektivi.
**Arazbarı** — Azərbaycan zərbi-muğamı.
**“Arşın mal alan”** — Ü.Hacıbəyli tərəfindən 1913-cü ildə yaradılmış ilk Azərbaycan operettası.
**Aşıq mahnıları** — aşıqların yaratdığı mahnılar.
**Balet** — musiqili-xoreoqrafik tamaşa.
**Balet librettosu** — baletin nəsrlə yazılmış məzmunu.
**Cəngi** — cəngavərlik ruhunda hərbi Azərbaycan xalq rəqsi.
**Dəsgah** — bütün tərkib hissələri ilə ifa olunan muğam.
**Xalq mahnıları** — el musiqiçilərinin yaratdığı mahnılar.
**İnstrumental muğam** — bir musiqi alətində səslənən muğam.
**Kantata** — bir, yaxud çoxhissəli, təntənəli, nağıl-epik xarakterli vokal-simfonik əsər.
**Kuplet quruluşu** — bənd və nəqəratdan ibarət mahnı quruluşu.
**Qəzəl** — professional klassik Şərq şeirinin ən mürəkkəb növü.
**Qravür** — bərk material üzərində relyefləşdirmə və ya basma üsulu ilə çəkilmiş şəkil.
**“Leyli və Məcnun” operası** — Üzeyir Hacıbəyli tərəfindən yaradılmış Azərbaycanda və Şərqdə ilk opera.
**Libretto** — böyük musiqi-vokal əsərinin yazılı mətni.
**Opera** — vokal-instrumental musiqili dram əsəri.
**Operetta** — komediya məzmunlu vokal-rəqs səhnələrindən və danışıq epizodlarından ibarət musiqili səhnə əsəri.
**Oratoriya** — solistlər, xor, qiraətçi və simfonik orkestr üçün yazılmış çoxhissəli musiqi əsəri.
**Romans** — səs və instrumental (çox zaman fortepianoda) müşayiətlə oxunan musiqi əsəri.
**Romans-qəzəl** — XX əsrin 40-cı illərində Ü.Hacıbəyli tərəfindən yaradılan yeni romans növü.
**Simfoniya** — yunan sözü olub, “həmahənglik” mənasını daşıyır, orkestr üçün irihəcmli əsərdir.
**Sözsüz mahnı** — sözdən istifadə edilmədən bir musiqi aləti, yaxud orkestr üçün yaradılmış əsər.
**Tərəkəmə** — maldarlıqla məşğul olan Tərəkəmə tayfalarına məxsus qədim Azərbaycan xalq rəqsi.
**Unison** — eyni yüksəklikdə olan iki və ya daha artıq səsin (ifaçının) eyni vaxtda birlikdə səslənməsi.
**Uvertüra —** musiqili səhnə əsərinin əvvəlində səslənən musiqi.
**Vokaliz —** səslə ifa olunan sözsüz melodiya.
**Vokal-instrumental muğam** — xanəndə və xalq çalğı alətlərinin müşayiəti ilə ifa edilən muğam.
**Zərbi-muğam** — ritmlə müşayiət olunan vokal-instrumental muğam.

# DƏRSLİYƏ DAXİL OLAN MAHNILARIN NOTLARI

## QALİBLƏR MAHNISI

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Ələkbər Ziyatayındır.*




## AY XƏZƏR

*Musiqisi Nazim Əliverdibəyovun,*
*sözləri Nəbi Xəzrinindir.*



## GƏNC İDMANÇILAR MARŞI

*Musiqisi Musa Mirzəyevin,*
*sözləri Hikmət Ziyanındır.*




## BAYRAM GÜNÜ

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Mirmehdi Seyidzadənindir.*



## ŞƏN AZƏRBAYCAN

*Musiqisi Polad Bülbüloğlunun*
*sözləri Məstan Günərindir.*




## QARABAĞ

*Musiqisi Cahangir Cahangirovun,*
*sözləri Rəfiq Zəkanındır.*



## NƏĞMƏLƏR

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*




## AZƏRBAYCAN

***(Azərbaycan aşıq mahnısı)***

*Not yazısı Səid Rüstəmovun,*
*sözləri Səməd Vurğunundur.*



# VƏTƏNİMSƏN

*Musiqisi Ramiz Mirişlinin,*
*sözləri Fikrət Qocanındır.*




# QIŞ MAHNISI

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Tofiq Mütəllibovundur.*



# GƏNCLİK MAHNISI

*Musiqisi Qara Qarayevin,*
*sözləri Yevgeniy Dolmatovskinindir.*




# MƏNİM BAĞIM

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Gəray Fəzlinindir.*




# BİP-BİPİN NƏĞMƏSİ

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Teymur Elçinindir.*



## ZƏFƏR BİZİMDİR

*Musiqisi Şəfiqə Axundovanın,*
*sözləri Abdulla Şaiqindir.*




## ODLAR YURDU

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Teymur Elçinindir.*




## BEŞİK NƏĞMƏSİ

***(Azərbaycan xalq mahnısı)***



## ANAM

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Qəşəm İsabəylinindir.*




## NOVRUZ GƏLDİ

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Sevinc Nuruqızınındır.*



## ÜRƏK DOYMAZ BAKIDAN

*Musiqisi Şəfiqə Axundovanın,*
*sözləri İsgəndər Coşqunundur.*




## ÖLMƏZ SƏRKƏRDƏ

*Musiqisi Süleyman Ələsgərovun,*
*sözləri Cavad Cavadlınındır.*



## VƏTƏN HAQQINDA MAHNI

*Musiqisi Niyazinin,*
*sözləri Süleyman Rüstəmindir.*




## BƏNÖVŞƏ

*Musiqisi Soltan Hacıbəyovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*



## DOSTLUQ MAHNISI

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Ənvər Əlibəylinindir.*




## ULU TORPAQ

*Musiqisi Eldar Mansurovun,*
*sözləri Nahid Hacızadənindir.*



# MAY

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Rüfət Əhmədzadənindir.*



**BURAXILIŞ MƏLUMATI**

**MUSİQİ 5**
*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Musiqi fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | ***Oqtay Məmmədağa oğlu Rəcəbov*** |
| | ***Nazim Kazım oğlu Kazımov*** |
| | ***Yeganə Əsgər qızı Axundova*** |
| | ***Ofeliya Safa qızı İmanova*** |
| Redaktor | ***Sevinc Nuruqızı*** |
| Bədii və texniki redaktor | ***Abdulla Ələkbərov*** |
| Dizayner | ***Firuzə İbrahimova*** |
| Rəssam | ***Gündüz Ağayev*** |
| Korrektor | ***Ülkər Hüseynova*** |

**Dərsliyə rəy verən təşkilatlar:**
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası,
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat, Nəsimi adına Dilçilik institutları

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-028)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 4,7. Fiziki çap vərəqi 5,0.
Formatı 70x100 1/16. Kəsimdən sonra ölçüsü: 165x240.
Səhifə sayı 80. Şriftin adı və ölçüsü: məktəb qarnituru, 10-12 pt.
Ofset kağızı. Ofset çapı. Sifariş 57.
Tiraj 157923. Pulsuz. Bakı—2020.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:** 16.06.2020

Nəşri hazırlayan və istehsal edən:
**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

**PULSUZ**

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

